**MM “FINCA Azerbaijan” QBKT-nin**
**2022-ci il üzrə illik idarəetmə**
**Hesabatı**

| | |
|---|---|
| **1. Emitentin tam və qısaldılmış adı, vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN), dövlət qeydiyyatının tarixi və nömrəsi** | **Məhdud Məsuliyyətli “FINCA AZERBAIJAN” Qeyri-Bank Kredit Təşkilatı, MM “FINCA AZERBAIJAN” QBKT**<br>**VÖEN: 1400494391**<br>**24.11.1999-ci il tarixində, № 811 nömrəli şəhadətnamə ilə AR Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmışdır.** |
| **2.emitentin hüquqi ünvanı və olduğu yer;** | **Hüquqi ünvan: Bakı şəhəri, Füzuli küçəsi 67, (5-ci mərtəbə)**<br><br>**Olduğu yer: Bakı şəhəri, Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi 44, Caspian Plaza, 3-cü korpus, 8-ci mərtəbə** |
| **3. adında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı, emitent hüquqi şəxslərin birləşməsi və ya çevrilmə şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları;** | **Olmayıb.** |
| **4. emitentin hesabat dövrü ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar;** | **Yaranmış filiallar:**<br>**Neftçala- Mərkəzi Bankda qeydiyyat tarixi 25.04.2022-ci il- Neftçala şəhəri, Heydər Əliyev prospekti, 19A**<br>**Yevlax- Mərkəzi Bankda qeydiyyat tarixi 11.07.2022-ci il- Yevlax şəhəri, Heydər Əliyev prospekti, 60/1** |

| | |
|---|---|
| | **Kürdəmir- Mərkəzi Bnakda qeydiyyat tarixi 15.07.2022-ci il - Kürdəmir şəhəri, Heydər Əliyev küçəsi**<br>**Ləğv edilmiş filiallar: Yoxdur** |
| **5.emitentin hesabat dövrü ərzində yaranmış və ya ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquqi forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, hüquqi şəxsin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti;** | **Olmayıb** |
| **6.emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı;** | **Yoxdur** |
| **7.emitentin məşğul olduğu fəaliyyət istiqamətləri;** | **Kreditlərin verilməsi** |
| **8.emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri;** | **29.09.2000 tarixli 110-KB saylı Lisenziya, Müddətsiz** |
| **9.emitentin təklif etdiyi məhsullar və xidmətlər;** | **Mikrokreditlərin verilməsi** |
| **10.emitentin işçilərinin sayı və onun rüblük dinamikası;** | **232 – 1R 2022**<br>**242 – 2R 2022**<br>**265 – 3R 2022**<br>**273 – 4R 2022** |
| **11. emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı;** | **Direktorlar Şurasının sədri- Zarlasht Wardak**<br>**Direktorlar Şurasının üzvləri- Jerrold Smelcer, Sridhar Srinivasan**<br>**Audit Komitəsi- Fisnik Kepuska**<br><br>**İdarə Heyətinin sədri- Timothy Tarrant**<br>**İdarə Heyətinin üzvləri- Muhammad Mobeen Yaqoob, Rəhimov Yadulla Yusif, Nurməmmədov Zaur İnqilab, Osmanov Şəhriyar Akif** |

| | |
|---|---|
| **12.emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayılıqda sayı;** | **100% paya sahib yeganə təsisçi- FINCA Coöperatief U.A.** |
| **13. emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrıayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı;** | **Nizamnamə Kapitalının ümumi məbləği 3,756,572 (üc milyon yeddi yüz əli altı min beş yüz yetmiş iki) manat və nizamnamə kapitalının 100% -i FINCA Microfinance Holding Company MMC məxsusdur. Niderland Krallığı** |
| **14. nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı);** | **Yoxdur** |
| **15.emitentin səhmdarlarının (payçılarının) hesabat dövrü ərzində keçirilmiş yığıncaqları barədə məlumat: yığıncağın keçirilmə tarixi və yeri (ünvan);ümumi yığıncaqda qəbul edilmiş qərarlar.** | **Yoxdur** |
| **16.emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir):** | |
| **-investisiya qiymətli kağızın növü və forması;** | **- Sənədsiz adlı və faizlı təmin edilməmiş istiqrazlar** |
| **- investisiya qiymətli kağızlar buraxılışının dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi;** | **- 06 yanvar 2022-ci il tarixli AZ2002019209; 21 yanvar 2022-ci il tarixli AZ2003019208 və 16 iyun 2022-ci il tarixli AZ2004019207** |
| **- investisiya qiymətli kağızların miqdarı və nominal dəyəri;** | **- Hər birinin nominal dəyəri 1000 manat olan 9 000 ədəd istiqraz** |
| **- investisiya qiymətli kağızlar buraxılışınıın məcmu nominal dəyəri;** | **- 9,000,000 manat** |

| | |
|---|---|
| - hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər<br><br>haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği<br>göstərilir);<br>- faizli istiqrazlar buraxılışı haqqında məlumatda - istiqrazlar üzrə gəlirliyin illik faiz dərəcəsi;<br>- investisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda). | Olmayıb<br><br>Olmayıb<br><br>- 12.5%<br><br>"Bakı Fond Birjası" QSC |
| 17.emitent tərəfindən bağlanılmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar: əqdin məbləği; hesabat tarixinə əqdin ödənilməmiş hissəsi. | Yoxdur |
| 18.emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:<br>- bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği;<br>- aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi. | Yoxdur |
| 19.illik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi; | 24 May 2023-cü il |
| 20.hesabatın açıqlanma mənbəyi haqqında məlumat. | www.finca.az<br>https://www.cbar.az/meas |

İcra Orqanının Rəhbəri — Timothy Tarrant

Baş Mühasib — Mehdi Baxşəliyev

AZƏRBAYCAN RESPUBLİKASI BAKI ŞƏHƏRİ
FINCA
AZERBAIJAN
AZERBAIJAN REPUBLIC BAKU CITY

# “FİNCA AZƏRBAYCAN” MƏHDUD MƏSULİYYƏTLİ BANK OLMAYAN KREDİT TƏŞKİLATI

**Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun Maliyyə Hesabatları və Müstəqil Auditorların Rəyi**

31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə

# "FİNCA AZƏRBAYCAN" MƏHDUD MƏSULİYYƏTLİ BANK OLMAYAN KREDİT TƏŞKİLATI

## MÜNDƏRİCAT


| | Səhifə |
|---|---|
| MÜSTƏQİL AUDİTORLARIN RƏYİ | 1-3 |
| 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARI: | |
| Maliyyə vəziyyəti haqqında hesabat | 4 |
| Mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabat | 5 |
| Kapitalda dəyişikliklər haqqında hesabat | 6 |
| Pul vəsaitlərinin hərəkəti haqqında hesabat | 7-8 |
| Maliyyə hesabatları üzrə qeydlər | 9-68 |

City Point Baku, 9th floor
J. Mammadguluzadeh str., 102A
Baku, AZ1022, Azerbaijan

T: +994 (12) 404 7 666
F: +994 (12) 404 7 667

office@bakertilly.az
**www.bakertilly.az**

## MÜSTƏQİL AUDİTORLARIN RƏYİ

"FİNCA Azərbaycan" Məhdud Məsuliyyətli Bank Olmayan Kredit Təşkilatının (bundan sonra "Təşkilat") Təsisçisi və İdarə Heyətinə:

### *Rəy*

Biz "FİNCA Azərbaycan" Məhdud Məsuliyyətli Bank olmayan Kredit Təşkilatının (bundan sonra "Təşkilat"), 31 dekabr 2022-ci il tarixinə təqdim edilən maliyyə vəziyyəti haqqında hesabatdan, həmin tarixdə başa çatmış il üzrə mənfəət və ya zərər və digər məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, əlavə edilmiş maliyyə hesabatları Təşkilatın 31 dekabr 2022-ci il tarixinə olan maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

### *Rəy üçün Əsaslar*

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun olaraq aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti" bölməsində təqdim edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Təşkilatdan asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də MBESŞ məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

### *Əsas Audit Məsələləri*

Əsas audit məsələləri bizim peşəkar mülahizəmizə əsasən, cari dövrün maliyyə hesabatlarının auditi zamanı ən çox əhəmiyyət kəsb edən məsələlərdir. Bu məsələlər ümumilikdə maliyyə hesabatlarının auditi çərçivəsində və bu hesabatlarla bağlı rəyimizin formalaşdırılması zamanı nəzərə alınmışdır və və biz bu məsələlərlə bağlı ayrıca rəy bildirmirik.

*Əsas audit Məsələləri*

*Müştərilərə verilmiş kreditlər üzrə ehtimal olunan kredit zərəri ehtiyatı*

Müştərilərə verilmiş kreditlər 2022-ci ilin dekabr ayının sonuna cəmi aktivlərin 89.6%-ni təşkil edir və müntəzəm olaraq təxmin edilən və istifadə edilən fərziyyələrə qarşı həssas olan ehtimal olunan kredit zərərləri ("EOKZ") üzrə ehtiyat çıxılmaqla qiymətləndirilir.



Baker Tilly Audit Azerbaijan CJSC trading as Baker Tilly is a member of the global network of Baker Tilly International Ltd., the members of which are separate and independent legal entities.

Ehtimal olunan kredit zərərlərinin qiymətləndirilməsi rəhbərlikdən defolt ehtimalını (DE), defolt vəziyyətində riskə məruz qalma riskini (DVRMQ) və defolt zamanı yaranan zərəri (DZYZ) müəyyən etmək üçün müşahidə edilən tarixi məlumatları, cari iqtisadi vəziyyəti və mövcud perspektivli məlumatları nəzərə alaraq əhəmiyyətli mülahizələri və qiymətləndirmə üsullarını tətbiq etməyi tələb edir.

Müştərilərə verilmiş kreditlər üzrə kredit zərəri ehtiyatı Təşkilatın maliyyə aktivlərinin qalıqlarının əhəmiyyətli olması və "Maliyyə Alətləri" adlı 9 saylı MHBS üzrə EOKZ məbləğinin hesablanmasının mürəkkəbliyi və mülahizələrə görə əsas audit məsələsi hesab edilir.

*Audit zamanı bu məsələ necə nəzərdən keçirilmişdir?*

Biz "Maliyyə Alətləri" adlı 9 saylı MHBS-in tələblərinə uyğunluğun EOKZ qiymətləndirməsi ilə bağlı Təşkilatın metodologiyası və daxili qaydalarının əsas aspektlərini təhlil etmək üçün maliyyə risklərinin idarə edilməsi üzrə öz mütəxəssislərimizi cəlb etmişdik.

Peşəkar mülahizələrin uyğunluğu və EOKZ ehtimalları ilə bağlı rəhbərlik tərəfindən irəli sürülən fərziyyələrin uyğunluğunu təhlil etmək üçün biz aşağıdakı prosedurları həyata keçirmişdik:

Biz, müştərilərə verilən kreditlər üzrə  DE, DZYZ və DVRMQ hesablanması, gecikmələrin və kredit ödənişlərinin əsas sistemlərdə vaxtında əks olunması və kreditlərin müvafiq mərhələlərə bölüşdürülməsi üçün məlumatların düzgünlüyünü sınaqdan keçirmişik. Biz nümunə əsasında dəstəkləyici sənədlərə daxil edilmiş məlumatları razılaşdırmışıq.

Biz həmçinin maliyyə hesabatlarının açıqlanmasının Təşkilatın kredit riskinə məruz qalmasını lazımi şəkildə əks etdirib-etdirmədiyini qiymətləndirmişdik.

***Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Verilmiş Şəxslərin Məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanmasına və düzgün şəkildə təqdim edilməsinə və rəhbərliyin fikrincə, fırıldaqçılıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Təşkilatı ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Təşkilatın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyətləri verilmiş şəxslər Təşkilatın maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

***Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti***

Bizim məqsədimiz tərtib edilmiş maliyyə hesabatlarında bir tam kimi, fırıldaqçılıq və ya xətalar nəticəsində yaranan əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimizi özündə əks etdirən auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflərin mövcud olduğu hallarda, BAS-a uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya xətalar nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə hazırlanmış maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

Audit zamanı biz BAS-ın tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi peşəkar mühakimə tətbiq edir və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edərək qiymətləndirir, bu risklərə cavab verən audit prosedurlarını layihələndirərək həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutları əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranan əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsində yaranan əhəmiyyətli təhrifləri aşkarlamamaq riskindən daha yüksəkdir, çünki fırıldaqçılıq, sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;

- Təşkilatın daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik;

- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məqsədəuyğunluğunu qiymətləndiririk;

- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Təşkilatın fəaliyyətini fasiləsiz davam etdirmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və ya şərtlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Bununla belə, gələcək hadisə və ya şərtlər Təşkilatın fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;

- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli şəkildə təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit apardığımız zaman daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında idarəetmə səlahiyyətləri verilmiş şəxslərə məlumat veririk.

Baker Tilly Azerbaijan

26 aprel 2023-cü il
Bakı, Azərbaycan Respublikası

## MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNƏ

*(Əksi göstərilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR:** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 2,525 | 4,080 |
| Müştərilərə verilmiş kreditlər, xalis | 7 | 44,875 | 29,065 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 8 | 572 | 538 |
| Aktivlərdən istifadə hüququ | 9 | 1,376 | 1,016 |
| Təxirə salınmış mənfəət vergisi aktivləri | 17 | 284 | 519 |
| Digər aktivlər | 10 | 476 | 654 |
| **Cəmi aktivlər** | | **50,108** | **35,872** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| ÖHDƏLİKLƏR: | | | |
| Borc alınmış vəsaitlər | 11 | 22,311 | 14,930 |
| Buraxılmış borc qiymətli kağızları | 12 | 8,950 | 2,940 |
| İcarə öhdəlikləri | 13 | 1,301 | 977 |
| Digər öhdəliklər | 14, 18 | 1,301 | 1,582 |
| **Cəmi öhdəliklər** | | **33,863** | **20,429** |
| KAPİTAL: | | | |
| Nizamnamə kapitalı | | 3,756 | 3,756 |
| Bölüşdürülməmiş mənfəət | | 12,489 | 11,687 |
| **Cəmi kapital** | | **16,245** | **15,443** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **50,108** | **35,872** |

**İdarə Heyətinin adından:**

**Timothy Tarrant**
Baş icraçı direktor

26 aprel 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Muhammad Mobeen Yaqoob**
Direktor müavini

26 aprel 2023-cü il
Bakı, Azərbaycan Respublikası

9-68-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

# "FİNCA AZƏRBAYCAN" MƏHDUD MƏSULİYYƏTLİ BANK OLMAYAN KREDİT TƏŞKİLATI

## MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Əksi göstərilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Faiz gəliri | 15 | 11,854 | 7,923 |
| Faiz xərci | 15 | (2,538) | (999) |
| **Ehtimal olunan kredit zərərlərinin azalmasından əvvəlki xalis faiz gəliri** | | **9,316** | **6,924** |
| Ehtimal olunan kredit zərərinin azalması | 7 | 3,587 | 2,721 |
| **Xalis faiz gəliri** | | **12,903** | **9,645** |
| İnzibati və əməliyyat xərcləri | 16, 18 | (8,893) | (6,677) |
| Xarici valyutada törəmə alətlərlə xalis nəticələr | 14 | (272) | (520) |
| Müsadirə edilmiş girovların ədalətli dəyərindəki dəyişiklik üzrə (zərər)/gəlir | | (32) | 3 |
| Digər (xərclər)/gəlirlər, xalis | | (204) | 129 |
| Xalis qeyri-faiz zərəri | | (9,401) | (7,065) |
| **Mənfəət vergisindən əvvəlki mənfəət** | | **3,502** | **2,580** |
| Mənfəət vergisi (xərci)/gəliri | 17 | (235) | 31 |
| **İl üzrə xalis mənfəət** | | **3,267** | **2,611** |
| **İl üzrə cəmi məcmu gəlir** | | **3,267** | **2,611** |

**İdarə Heyətinin adından:**

**Timoti Tarrant**
Baş icraçı direktor

26 aprel 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Muhammad Mobeen Yaqoob**
Direktor müavini

26 aprel 2023-cü il
Bakı, Azərbaycan Respublikası

9-68-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Əksi göstərilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **1 yanvar 2021-ci il** | **3,756** | **11,745** | **15,501** |
| İl üzrə cəmi məcmu gəlir | - | 2,611 | 2,611 |
| Elan edilmiş dividendlər | - | (2,669) | (2,669) |
| **31 dekabr 2021-ci il** | **3,756** | **11,687** | **15,443** |
| İl üzrə cəmi məcmu gəlir | - | 3,267 | 3,267 |
| Elan edilmiş dividendlər | - | (2,465) | (2,465) |
| **31 dekabr 2022-ci il** | **3,756** | **12,489** | **16,245** |

**İdarə Heyətinin adından:**

**Timoti Tarrant**
Baş icraçı direktor

26 aprel 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Muhammad Mobeen Yaqoob**
Direktor müavini

26 aprel 2023-cü il
Bakı, Azərbaycan Respublikası

9-68-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Əksi göstərilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri:** | | | |
| Mənfəət vergisindən əvvəl mənfəət | | 3,502 | 2,580 |
| Düzəlişlər: | | | |
| Ehtimal olunan kredit zərərinin artması | 7 | (3,587) | (2,721) |
| Xarici valyutada törəmə alətlərlə xalis nəticə | 14 | 215 | 520 |
| Köhnəlmə və amortizasiya | 16 | 912 | 570 |
| Hesablanmış faizlər üzrə xalis dəyişiklik | | 371 | 1,210 |
| Müsadirə edilmiş girovların ədalətli dəyərindəki dəyişiklik üzrə (zərər)/gəlir | | 32 | (3) |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəlki əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | | **1,445** | **2,156** |
| Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklər | | | |
| Müştərilərə verilmiş kreditlər, xalis | | (11,914) | (8,699) |
| Digər aktivlər | | 148 | (287) |
| Digər öhdəliklər | | (499) | 251 |
| **Əməliyyat fəaliyyətinə yönələn xalis pul vəsaitləri** | | **(10,820)** | **(6,579)** |
| **İnvestisiya fəaliyyətindən daxil olan:** | | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin satın alınması | | (345) | (507) |
| **İnvestisiya fəaliyyətinə yönələn xalis pul vəsaitləri** | | **(345)** | **(507)** |
| **Maliyyə fəaliyyətindən daxil olan pul vəsaitləri:** | | | |
| Borc alınmış vəsaitlər üzrə daxilolmalar | 11 | 9,781 | 6,982 |
| Borc alınmış vəsaitlərin geri ödənilməsi | 11 | (2,987) | (2,346) |
| Borc alınmış vəsaitlər üzrə ödənilmiş əməliyyat xərcləri | 11 | (70) | (68) |
| Buraxılmış borc qiymətli kağızları üzrə daxilolmalar | 12 | 6,000 | 3,000 |
| Buraxılmış borc qiymətli kağızları üzrə ödənilmiş əməliyyat xərcləri | 12 | (29) | (60) |
| İcarə öhdəliklərinin əsas hissəsinin ödənilməsi | 13 | (620) | (278) |
| Ödənilmiş dividendlər | | (2,465) | (2,669) |
| **Maliyyə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **9,610** | **4,561** |

## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT
## 31 DEKABR 2022-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ (Davamı)

*(Əksi göstərilmədiyi halda, min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Pul vəsaitləri və onlarin ekvivalentlərində xalis azalma | | (1,555) | (2,525) |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARİN EKVİVALENTLƏRİ, *ilin əvvəlinə* | 6 | 4,080 | 6,605 |
| PUL VƏSAİTLƏRİ VƏ ONLARİN EKVİVALENTLƏRİ, *ilin sonuna* | 6 | 2,525 | 4,080 |

**İdarə Heyətinin adından:**

**Timoti Tarrant**
Baş icraçı direktor

26 aprel 2023-cü il
Bakı, Azərbaycan Respublikası

**Muhammad Mobeen Yaqoob**
Direktor müavini

26 aprel 2023-cü il
Bakı, Azərbaycan Respublikası

9-68-ci səhifələrdə verilmiş qeydlər maliyyə hesabatlarının tərkib hissəsini təşkil edir.

## 1. GİRİŞ

### Təşkilat və onun əsas fəaliyyəti

"FİNCA Azərbaycan" Məhdud Məsuliyyətli Bank olmayan Kredit Təşkilatı ("Təşkilat") 1998-ci ildə Azərbaycan Respublikasında təsis edilmişdir. 19 noyabr 1999-cuilədək Təşkilat "FINCA International Inc." təşkilatinin Azərbaycan Respublikasındakı nümayəndəliyi kimi qeydiyyatda olmuşdur. 19 noyabr 1999-cu il tarixində Təşkilat, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində yenidən qeydiyyatdan keçmiş və hüquqi şəxs statusunu almışdır. Təşkilat Azərbaycan Respublikası ərazisində kreditlərin verilməsi fəaliyyəti ilə yalnız hüquqi şəxslərin məşğul ola bilməsi haqda Azərbaycan Respublikası Mərkəzi Bankının qaydalarını yerinə yetirmək məqsədilə yenidən qeydiyyatdan keçmişdir. Yeni müəssisə kreditlərin verilməsi fəaliyyəti ilə bağlı Azərbaycan Respublikasının Mərkəzi Bankından 29 fevral 2000-ci il tarixli lisenziya almışdır. Təşkilatın hüquqi ünvanı Azərbaycan Respublikası, Bakı şəhəri, Cəfər Cabbarlı küçəsi 44, AZ1065 ünvanında yerləşir.

Təşkilatın məqsədi Azərbaycan Respublikasında fəaliyyət göstərən mikro, kiçik və orta ölçülü biznes müəssisələrinə, həmçinin satış sahəsində və kiçik miqyaslı istehsal sahəsi üzrə mikro müəssisələrdə fəaliyyət göstərən fiziki şəxslərə və ya fiziki şəxslərdən ibarət qruplara kreditlərin verilməsi də daxil olmaqla maliyyə xidmətləri göstərməkdir.

31 dekabr 2022 və 2021-ci il tarixlərində Təşkilatın müvafiq olaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən 25 və 22 filialı olmuşdur. Təşkilatın 2022-ci il tarixi ərzində təqribən 248 işçisi olmuşdur (2021-ci il: 196 işçi).

Təşkilat, qeydiyyatdan keçmiş ofisi Hollandiyada yerləşən "FINCA Microfinance Cöperatief U.A" Təşkilatının törəmə müəssisəsidir. Təşkilatın əsas nəzarətçi tərəfi Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində təsis edilmiş "FINCA International, Inc." qeyri-kommersiya təşkilatıdır. 2010-cu ilin oktyabr ayında "FINCA International Inc." "FINCA Microfinance Holding Company" MMC-ni ("FMH")" təsis edərək onun 100 faiz pay sahibinə malik holdinq təşkilati olmuşdur.

31 dekabr 2022 və 2021-ci il tarixlərinə Təşkilatın aşağıda sadalanan səhmdarları mövcud olmuşdur:

| | 31 dekabr 2022-ci il, % | 31 dekabr 2021-ci il, % |
|---|---|---|
| **Təşkilatın səhmdarı (birinci dərəcəli səhmdar)** | | |
| FINCA Microfinance Coöperatief U.A. | 100.00 | 100.00 |
| **Cəmi** | **100.00** | **100.00** |

| | 31 dekabr 2022-ci il, % | 31 dekabr 2021-ci il, % |
|---|---|---|
| **Təşkilatın əsas səhmdarları** | | |
| "FINCA International, Inc." | 62.64 | 62.64 |
| "International Finance Corporation" | 14.38 | 14.38 |
| "Kreditanstalt für Wiederaufbau" | 8.94 | 8.94 |
| "FMO (Nederlandse Financierings Maatschappij voor Ontwikkelingslanden N.V.)" | 7.31 | 7.31 |
| Credit Suisse Mikromaliyyə Fondu İdarəetmə Şirkəti, Qlobal Mikromaliyyə Fondu məsuliyyət daşıyır | 2.98 | 2.98 |
| Triodos İnvestisiya İdarəetmə şirkəti, aşağıdakıları təmsil edir: (i) Triodos Fair Share Fund-un mühafizəçisi qismində Triodos Custody B.V.; və (ii) Triodos SİCAV II – Triodos Mikromaliyyə Fondu | 2.07 | 2.07 |
| Triple Jump, ASN-NOVIB FONDS üçün fəaliyyət göstərir | 1.68 | 1.68 |
| **Cəmi** | **100.00** | **100.00** |

**Təşkilatın əməliyyat mühiti**

Təşkilat fəaliyyətini Azərbaycan Respublikasında həyata keçirir.

Təşkilat inkişaf etməkdə olan bazarın xüsusiyyətlərini əks etdirən Azərbaycanın iqtisadi və maliyyə bazarları ilə qarşılıqlı fəaliyyət göstərir. Hüquq, vergi və tənzimləyici strukturlar daimi inkişafdadır, bununla belə mütəmadi olaraq yeni şərhlərə dəyişikliklərə məruz qalırlar, bu isə öz növbəsində digər hüquqi və maliyyə çətinlikləri ilə birlikdə Azərbaycanda fəaliyyət göstərən müəssisələrin üzləşdiyi problemləri daha da gücləndirir.

Azərbaycan iqtisadiyyatı həmçinin beynəlxalq enerji qiymətləri səviyyəsindən əhəmiyyətli dərəcədə asılıdır. Xam neftin qiyməti ilin birinci yarısında təchizat ilə bağlı çətinliklər səbəbindən artmış, lakin ilin ikinci yarısından etibarən mümkün iqtisadi tənəzzüllə bağlı çətinliklər tələbi azaltdığından neft qiymətləri ümumilikdə azalmışdır. "Brent" markalı neftin spot qiyməti 2022-ci ildə 1 barel üçün orta hesabla 100 ABŞ dolları təşkil etmişdir. Yüksək neft qiymətləri ölkənin iqtisadi inkişafını dəstəkləmişdir.

2015-2016-cı illərdə Azərbaycan manatının dəyərdən düşməsi biznes mühitində ciddi qeyri-müəyyənliklərə səbəb olmuşdur. Bu səbəbdən hökumət son 5 ildə sabit məzənnəni qorumaq üçün bütün lazımi tədbirləri həyata keçirmişdir. Nəticədə, neftin dünya bazarındakı qeyri-sabit qiyməti yerli valyutaya təsir göstərməmiş, eləcə də biznes mühitində qeyri-müəyyənlik artmamışdır. COVID-19 koronavirus pandemiyası 2020-ci ildə müəssisələrə əhəmiyyətli dərəcədə təsir göstərmişdir, lakin hökumətin uğurlu peyvənd kampaniyasından sonra müəssisələrin əksəriyyəti 2021-ci və 2022-ci ilin birinci yarısında davamlı olaraq öz normal fəaliyyətinə qayıtmışdılar. Qarabağ regionunda atəşkəs razılaşmasının davam etməsi biznes mühitini də müsbət təsir göstərir, çünki investisiyaların cəlb edilməsi və işğaldan azad edilmiş ərazilərin inkişafı üçün hökumət tərəfindən həyata keçirilən bir sıra layihələr mövcuddur.

ÜDM 2021-ci illə müqayisədə 2022-ci ildə 4.6% artaraq 133.8 milyard AZN-ə (78.7 milyard ABŞ dolları) çatmışdır. Dövlət Gömrük Komitəsinin statistikasına əsasən 2022-ci il ərzində Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi təqribən 52.69 milyard ABŞ dollarına çatmışdır. Bu məbləğin 38.15 milyard ABŞ dolları ixrac olunan məhsulların, 14.54 milyard ABŞ dolları isə idxal olunan məhsulların payına düşmüşdür.

Hökumət Azərbaycan manatının sabitliyi ilə bağlı monetar siyasətini davam etdirmiş, həmçinin ayrılmış valyuta resursları Azərbaycan manatını sabitləşdirmişdir. Bu siyasət makroiqtisadi sabitliyin qorunması məqsədi ilə 2022-ci ilin doqquz ayı ərzində davam etdirilmişdir. Azərbaycan Respublikasının Mərkəzi Bankı dövr ərzində yenidən maliyyələşdirmə dərəcəsini bir neçə dəfə dəyişdirmiş və sabit artımı ilə dərəcələr 7,25%-8,25% arasında olmuşdur.

6 iyun 2022-ci il tarixində Mərkəzi Bank depozitlər üzrə minimal ehtiyat dərəcələrini yerli və xarici valyutalar üzrə müvafiq olaraq 5% və 6%-ə qədər artırmışdır.

2022-ci ilin dekabr ayında 2021-ci ilin dekabr ayına olan illik inflyasiya dərəcəsi 6.7%-dən 13.9%-ə qədər yüksəlmişdir.

2021-ci il üzrə aktiv 11,040 min plastik kart sayı ilə müqayisədə 2022-ci ilin dekabr ayının sonuna qədər aktiv plastik kartların sayı 13,257 min ədəd olmaqla tarixən ən yüksək səviyyəyə yüksəlmişdir.

2022-ci ildə fiziki şəxslərin xarici valyutada depozitlərinin xüsusi çəkisi 2021-ci ildə olan 41%-dən 39.2%-ə düşmüşdür.

Beynəlxalq kredit reytinq agentlikləri mütəmadi olaraq Azərbaycan Respublikasının kredit reytinqini qiymətləndirirlər. "Fitch" və "S&P" Azərbaycan Respublikasının reytinqini "BB+" olaraq qiymətləndirmişdir. "Moody's Investors Service", ölkə üçün "Ba1" kredit reytinqini təyin etmişdir.

## 2. ƏSAS MÜHASİBAT PRİNSİPLƏRİ

**Hesabatların uyğunluğunun bəyanı**

Təşkilatın 31 dekabr 2022-ci il tarixində başa çatmış il üzrə maliyyə hesabatları Beynəlxalq Mühasibat Standartları Şurası tərəfindən dərc edilmiş Beynəlxalq Maliyyə Hesabatları Standartları ("MHBS") və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Şərhlər Komitəsi ("MHBSŞK") tərəfindən dərc edilmiş şərhlər əsasında hazırlanmışdır.

**Fasiləsizlik prinsipi**

Bu maliyyə hesabatları Təşkilatın fasiləsizlik prinsipi əsasında yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik hesab edir ki, Təşkilat yaxın gələcəkdə fəaliyyətini davam etdirəcək və Təşkilatın ləğvinə nə istək, nə də ehtiyac olacaq, eləcə də fəaliyyəti dayandırmaq və ya Azərbaycan Respublikasının qanunları və ya normativ aktları əsasında kreditorlardan qorunmaq üçün müdafiə axtarmaq üzrə nə niyyət, nə də zərurət mövcuddur. Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyətin gedişində Təşkilatın aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olması fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir. Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Təşkilatın fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələbləri və nəzərə alınmalı olan müəyyən məsələləri və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Fasiləsizlik prinsipinin fərziyyələrinə dair Rəhbərliyin qiymətləndirməsinə müəyyən vaxt çərçivəsində mahiyyəti üzrə qeyri-müəyyən hadisələr və şərtlərin gələcək nəticələri haqqında fikir bildirilməsi daxildir.

**Təqdimatın digər əsasları**

Bu maliyyə hesabatları əksi göstərilmədiyi hallarda Azərbaycan manatı ("AZN") ilə təqdim edilmişdir. Bu maliyyə hesabatları, müəyyən maliyyə alətlərinin ədalətli dəyərinin ölçülməsi istisna olmaqla, tarixi dəyər prinsiplərinə əsasən hazırlanmışdır.

Təşkilat mühasibat sistemini Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə təşkil edir. Bu maliyyə hesabatlarını hazırlayarkən yerli mühasibat prinsiplərinə uyğun tərtib edilmiş mühasibat sistemindən istifadə edilmiş və MHBS-ə uyğunlaşdırılmaq məqsədilə hesabatlara düzəlişlər edilmişdir. Bu düzəlişlərə əməliyyatların iqtisadi mahiyyətini əks etdirmək üçün müəyyən təsnifləşdirilmələr, həmçinin müəyyən aktiv və öhdəliklərin, eləcə də gəlir və xərclərin maliyyə hesabatlarındakı maddələrə uyğunlaşdırılması məqsədilə edilən yenidən təsnifləşdirilmələr aiddir.

**Əvəzləşdirmə**

Maliyyə aktivləri və maliyyə öhdəlikləri yalnız uçotda tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanuni hüquq mövcud olduqda və xalis məbləğ əsasında hesablaşmalar aparılması, yaxud da eyni vaxtda aktivlərin satılması və öhdəliyin yerinə yetirilməsi nəzərdə tutulduqda bir-birinə qarşı əvəzləşdirilir, xalis məbləği isə maliyyə vəziyyəti haqqında hesabatda bildirilir. Hər hansı mühasibat uçotu standartı və ya şərhi ilə tələb olunmayana və ya icazə verilməyənədək və Təşkilatın mühasibat uçotu qaydalarında konkret göstərilməyənə qədər gəlir və xərc mənfəət və ya zərər haqqında hesabatda bir-birinə qarşı əvəzləşdirilmir.

**Maliyyə alətləri - əsas qiymətləndirmə şərtləri**

Təsnifat formalarından asılı olaraq maliyyə alətləri aşağıda əks etdirildiyi kimi ədalətli dəyərdə və ya amortizasiya edilmiş dəyərlə qeydə alınır.

Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər ən yaxşı olaraq fəal bazarda alınıb-satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar, qiymətlər haqqında davamlı olaraq məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb-satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir, (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir, (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni, qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir. 20 saylı Qeydə baxın.

Əməliyyat xərcləri əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

Amortizasiya edilmiş dəyər əsas məbləğin ödənilməsi çıxılmaqla, lakin hesablanmış faizləri daxil etməklə, maliyyə aktivləri üçün isə dəyərsizləşmə zərərləri üzrə hər hansı silinməni çıxmaqla aktivlərin ilkin dəyərini əks etdirir. Hesablanmış faizlərə ilkin uçot zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz metodundan istifadə etməklə ödəniş məbləği üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin balans dəyərinə daxil edilir.

Effektiv faiz metodu maliyyə alətinin qalıq dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi, təxmin edilən gələcək pul ödənişlərini və ya daxilolmaları (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin gözlənilən fəaliyyət müddəti ərzində və ya müvafiq hallarda daha qısa müddət ərzində maliyyə alətinin xalis qalıq dəyərinə diskontlaşdıran dəqiq dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Bu cür mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir.

**Maliyyə alətlərinin ilkin tanınması**

Maliyyə aktivi və ya maliyyə öhdəliyi, ilk öncə ədalətli dəyərdə, həmçinin əldə edilməsinə və buraxılmasına birbaşa aid olan mənfəət və ya zərər, əməliyyat xərcləri ilə ədalətli dəyərdə olmayan predmet üzrə ölçülür.

İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə sübut edilir. İlkin tanınma zamanı yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda yaranan mənfəət və ya zərər qeydə alınır. Ədalətli dəyər eyni maliyyə aləti ilə aparılan digər cari bazar əməliyyatlarının müşahidəsi və yaxud həmin bazarlardan əldə edilən məlumatlara əsaslanan qiymətləndirmə üsulu ilə sübut edilir.

Qanunvericilik və ya mövcud bazar qaydaları ilə müəyyən edilmiş vaxt çərçivəsində alınıb-satılması nəzərdə tutulan maliyyə aktivləri ("standart şərtlərlə həyata keçirilən" alış və satışlar) Təşkilatın maliyyə aktivini almaq və ya satmaq öhdəliyini qəbul etdiyi əməliyyat tarixində qeydə alınır. Alış üzrə bütün digər əməliyyatlar müəssisənin həmin maliyyə aləti üzrə müqavilə tərəfi olduqda tanınır.

**Maliyyə alətlərinin təsnifatı**

Maliyyə aktivi amortizasiya dəyərində, digər məcmu gəlir vasitəsilə ədalətli dəyərdə ("DMGVƏD") ölçülmüş dəyərdə və ya mənfəət və ya zərər vasitəsilə ədalətli dəyərdə ("MZVƏD") təsnif edilir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisinə cavab verdikdə və MZVƏD kimi müəyyən edilmədikdə, amortizasiya olunmuş dəyərində ölçülür:

- aktiv müqavilə üzrə pul axınlarını toplamaq üçün aktivləri saxlamaq məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivinin müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən (YƏMFÖ) ibarət olan pul axınlarına təkan verir.

Maliyyə aktivi aşağıdakı şərtlərin hər ikisini ödədikdə və MZVƏD kimi müəyyən edilmədikdə, DMGVƏD-də ölçülür:

- aktiv həm müqavilə üzrə pul axınlarının toplanması və həm də maliyyə aktivlərinin satılması məqsədi daşıyan biznes modeli çərçivəsində saxlanılır; və
- maliyyə aktivinin müqavilə şərtləri müəyyənləşdirilmiş tarixlərdə ödənilməmiş əsas məbləğ üzrə yalnız əsas məbləğ və faizin ödənişlərindən ibarət olan pul axınlarına təkan verir.

Ticarət üçün nəzərdə tutulmayan kapital qoyuluşunun ilkin tanınması zamanı Təşkilat ədalətli dəyərdəki sonrakı dəyişiklikləri digər məcmu gəlirdə (DMG) təqdim etməyi seçə bilər. Bu seçim hər bir kapital qoyuluşu üçün ayrıca edilir.

Bütün digər maliyyə aktivləri MZVƏD kimi təsnif olunur.

Bununla yanaşı, ilkin tanıma zamanı Təşkilat amortizasiya olunmuş dəyərində və ya DMGVƏD-də ölçülmə tələblərinə uyğun gələn maliyyə aktivini MZVƏD kimi təsnif edə bilər, o halda ki, bu, meydana çıxacaq uçot uyğunsuzluğunu aradan qaldırsın və ya əhəmiyyətli dərəcədə azaltsın.

**Biznes modelinin qiymətləndirilməsi**

Təşkilat maliyyə aktivinin saxlandığı biznes modelinin məqsədini qiymətləndirəcək, çünki bu, biznesin idarə olunması və məlumatların rəhbərliyə təqdim edilməsi üsulunu daha düzgün əks etdirir. Bu zaman aşağıdakı məlumatlar nəzərə alınır:

- portfel üçün müəyyən edilmiş siyasətlər və məqsədlər, həmin siyasətlərin praktikada tətbiqi, o cümlədən rəhbərliyin strategiyasının müqavilə üzrə faiz gəlirlərinin əldə edilməsinə, xüsusi faiz dərəcəsi profilinin saxlanmasına, maliyyə aktivlərinin müddətinin həmin aktivləri maliyyələşdirən öhdəliklərin müddətinə uyğunlaşdırılmasına və ya aktivlərin satışı vasitəsilə pul axınlarının realizasiyasına fokuslanıb-fokuslanmaması;
- portfelin göstəriciləri necə qiymətləndirilir və Təşkilatın rəhbərliyinə necə çatdırılır;
- biznes modelinin (və həmin biznes modeli çərçivəsində saxlanılan maliyyə aktivlərinin) performansına təsir edən risklər və bu risklərin necə idarə olunması;
- biznesin menecerləri necə mükafatlandırılır – məsələn, mükafatlandırma idarə olunan aktivlərin ədalətli dəyərindən və ya toplanmış pul axınlarından asılıdırmı; və
- əvvəlki dövrlərdə satışların tezliyi, həcmi və müddəti, bu satışların səbəbləri və gələcək satış fəaliyyəti barədə gözləntilər. Bununla belə, satış fəaliyyəti barədə məlumat ayrıca deyil, maliyyə aktivlərinin idarə olunması üzrə Təşkilatı məqsədinə necə nail olunmasının və pul axınlarının necə realizasiya edilməsinin ümumi qiymətləndirilməsi çərçivəsində nəzərə alınır.

**Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsi**

Bu qiymətləndirmənin məqsədləri üçün "əsas məbləğ" dedikdə, ilkin tanınma zamanı maliyyə alətinin ədalətli dəyəri nəzərdə tutulur. "Faiz" dedikdə, pulun zaman dəyəri, müəyyən dövr ərzində ödənilməmiş əsas məbləğlə bağlı kredit riski və digər əsas kredit riskləri və xərcləri (məs. likvidlik riski və inzibati xərclər), eləcə də mənfəət marjası üçün ödəniş nəzərdə tutulur.

Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsində Təşkilat alətin müqavilə şərtlərini nəzərə alacaq. Bu qiymətləndirmə maliyyə aktivində həmin aktivin bu şərtə əməl etməməsi ilə nəticələnən, müqavilə üzrə pul axınlarının müddəti və ya məbləğini dəyişə bilən müqavilə şərtinin olub-olmamasını əhatə edəcək.

Qiymətləndirmə zamanı Təşkilat aşağıdakıları nəzərə alacaq:

- pul axınlarının məbləği və müddətini dəyişəcək şərti hadisələr;
- kapitalın borca nisbətinin xüsusiyyətləri;
- vaxtından əvvəl ödəniş və müddətin uzadılma şərtləri;
- Təşkilatın iddiasını müəyyənləşdirilmiş aktivlərdən pul axınlarına məhdudlaşdıran şərtlər məs. reqressiz aktivlər; və
- pulun zaman dəyəri üzrə ödənişi dəyişən xüsusiyyətlər – məs. faiz dərəcələrinin mütəmadi olaraq yenilənməsi

**Maliyyə alətlərinin yenidən təsnif**

Maliyyə aktivləri Təşkilatın maliyyə aktivlərini idarə etmək üçün öz biznes modelini dəyişdirdikdən sonra dövr ərzində istisna olmaqla, maliyyə aktivləri ilkin tanınmalarından sonra yenidən təsnifləşdirilmir. Yenidən təsnifat perspektiv təsirə malikdir.

**Maliyyə aktivlərinin dəyərsizləşməsi – EOKZ üzrə kredit zərəri ehtiyatı**

Təşkilat AD və DMGVƏD ilə ölçülmüş borc alətləri və kredit öhdəlikləri və maliyyə zəmanəti müqavilələri üzrə EOKZ-ni perspektiv əsasda ölçür. Təşkilat EOKZ-ni ölçür və hər hesabat dövrünə

kredit zərəri üzrə ehtiyatı tanıyır. EOKZ-nin ölçülməsi: (i) mümkün nəticələrin bir sıra qiymətləndirilməsi ilə təyin olunan qərəzsiz və ehtimallı məbləğini (ii) pul vəsaitlərinin müddət dəyərini və (iii) keçmiş hadisələr, gələcək şərtlər və gələcək şəraitin proqnozları barədə hər bir hesabat dövrünün sonunda qeyri-adekvat xərc və səy olmadan mövcud olan bütün məqbul və dəstəklənən məlumatları əks etdirir.

AD ilə ölçülmuş borc vəsaitləri EOKZ üzrə ehtiyat çıxılmaqla maliyyə vəziyyəti haqqında hesabatda göstərilir. Kredit öhdəlikləri və maliyyə zəmanətləri üçün, EOKZ üzrə ayrı ehtiyat, maliyyə vəziyyəti haqqında hesabatda öhdəlik olaraq tanınır. DMGVƏD-də borc alətləri üçün EOKZ üzrə ehtiyat çıxılmaqla amortizasiya dəyərindəki dəyişiklik, mənfəət və ya zərər və digər qalıq dəyərindəki dəyişiklik isə DMG-də gəlirlər DMGVƏD borc alətləri üzrə zərərlər çıxılmaqla tanınır.

Təşkilat dəyərsizləşmə üzrə üç mərhələli model tətbiq edir. Bu model ilkin tanımadan sonra kredit keyfiyyətində dəyişikliyə əsaslanır. İlkin tanımada dəyərsizləşməyən maliyyə aləti 1-ci Mərhələyə təsnif edilir. 1-ci Mərhələdə maliyyə aktivləri EOKZ-nin ömürlük hissəsinə bərabər olan miqdarda növbəti 12 ay ərzində mümkün olan nəticələrə və ya daha qısa müddətdə ("12 aylıq EOKZ") müqavilə müddətinə qədər ölçülür. Əgər Təşkilat KRƏA-nı ilkin tanımadan sonra müəyyən edirsə, aktiv 2-ci Mərhələyə köçürülür və onun EOKZ-si ömürlük EOKZ əsasında, müqavilə əsasında son ödəmə müddətinə qədər, lakin əgər varsa ehtimal olunan ilkin ödənişlər nəzərə alınmaqla hesablanır ("Ömürlük EOKZ"). Təşkilatın KRƏA-nı müəyyən etdiyi haqqında 22 saylı Qeydə nəzər salın. Əgər Təşkilat maliyyə aktivinin kredit üzrə dəyərsizləşməsini müəyyən edirsə, aktiv 3-cü Mərhələyə köçürülür və EOKZ Ömürlük EOKZ ilə ölçülür. Təşkilatın kredit dəyərsizləşməsi üzrə aktiv və defolt anlayışları 22 saylı Qeyddə açıqlanır. Satın alındıqda və ya əldə edildikdə kredit üzrə dəyərsizləşməyə uğramış aktivlər ("SƏKD" aktivlər) üçün EOKZ hər zaman Ömürlük EOKZ ilə ölçülür. SƏKD aktivləri ilkin tanınma zamanı, məsələn, əldə edilmiş dəyərsizləşdirilmiş kreditlər kimi dəyərsizləşmiş maliyyə aktivləridir. EOKZ ölçülməsində istifadə edilən giriş, fərziyyə və qiymətləndirmə üsulları, eyni zamanda Təşkilatın EOKZ modellərində **gələcəkyönümlü** məlumatları necə əhatə etdiyi 22 saylı Qeyddə izah edilir.

**Maliyyə vəziyyəti haqqında hesabatda EOKZ üzrə ehtiyatın təqdim edilməsi**

EOKZ üzrə zərər ehtiyatları maliyyə vəziyyəti haqqında hesabatda aşağıdakı kimi təqdim olunur:

- amortizasiya olunmuş dəyərdə ölçülən maliyyə aktivləri: aktivlərin ümumi balans dəyərindən çıxılmaqla;
- kredit öhdəlikləri və maliyyə təminatı müqavilələri: ümumiyyətlə, ehtiyat kimi;
- maliyyə aləti həm çıxarılmış, həm də istifadə edilməmiş komponentdən ibarət olduğu halda və Təşkilat, kredit öhdəliyi komponenti üzrə EOKZ-ni çıxarılmış komponentdən ayrı olaraq müəyyən edə bilmədiyi halda: Təşkilat hər iki komponent üzrə birgə zərər ehtiyatı təqdim edir. Birləşdirilmiş məbləğ yerinə yetirilmiş komponentin ümumi balans dəyərindən çıxılmaqla təqdim edilir. Çıxarılmış komponentin ümumi məbləği üzrə zərər ehtiyatının hər hansı bir hissəsi ehtiyat kimi təqdim olunur; və
- DMGVƏD-də ölçülən borc alətləri: aktivlərin balans məbləği onların ədalətli dəyəri olduğu üçün, heç bir zərər ehtiyatı maliyyə vəziyyəti haqqında hesabatda tanınmır. Bununla yanaşı, zərər ehtiyatı ədalətli dəyər ehtiyatının bir hissəsi kimi tanınır.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Təşkilat aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (a) aktivlər geri alındıqda və ya bu aktivlərlə əlaqədar pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (b) Təşkilat maliyyə aktivlərindən daxil olan pul vəsaitlərinin axını üzrə mülkiyyət hüququnu ötürdükdə və ya ötürülmə haqqında müqavilə bağladıqda və bu zaman (i) həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (ii) bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda, lakin həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Nəzarət qarşı tərəfin öz mülkiyyətində olan aktivi satış üzrə əlavə məhdudiyyətlər qoymadan əlaqəli olmayan üçüncü tərəfə satmaq üçün praktiki imkana malik olmadığı hallarda saxlanılır.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentləri müqavilə öhdəliklərindən azad olmaqla kassadakı nağd vəsaitlərindən, köçürülmüş vəsaitlərdən və banklardakı həqiqi ödəmə müddəti üç ay və ya ondan az olan cari hesablardan ibarətdir. Pul vəsaitləri və onların ekvivalentləri AD ilə təqdim olunur, çünki: (i) müqavilə əsasında pul vəsaitlərinin axınlarını yığılması üçün saxlanılır və bu pul axınları YƏMFÖ-nü təmsil edir və (ii) bu aktivlər MVZVƏD ilə müəyyən edilməmişdir. Müəyyən ölkələrdə təminat qanunvericiliyi kimi yalnız qanunvericiliklə nəzərdə tutulmuş xüsusiyyətlər, qanunvericilik sonradan dəyişdirilsə belə, bu xüsusiyyətin tətbiq olunacağı müqavilə şərtlərinə daxil edilmədiyi halda, YƏMFÖ testinə təsir göstərmir.

**Müştərilərə verilmiş kreditlər və avanslar, xalis**

Müştərilərə verilmiş kreditlər və avanslar Təşkilat tərəfindən müştərilərə kredit almaq üçün avans şəklində nağd pul verildiyi zaman qeydə alınır. Biznes modeli və pul vəsaitlərinin hərəkəti xarakteristikasına əsasən Təşkilat müştərilərə verilmiş kreditləri və avansları aşağıdakı qiymətləndirmə kateqoriyalarından birində təsnifləşdirir:

(i) AD: müqavilə üzrə pul vəsaitlərinin toplanması üçün saxlanılan kreditlər və YƏMFÖ-nü təmsil edən həmin pul vəsaitlərinin hərəkəti və könüllü olaraq MZVƏD-də təyin olunmayan kreditlər; və

(ii) MZVƏD: YƏMFÖ sınağını keçməyən və ya MZVƏD-də ölçülən AD və ya DMGVƏD üzrə digər meyarlara cavab verməyən kreditlər.

**Silinmələr**

Maliyyə aktivləri maliyyə aktivlərini tam və ya qismən bərpa etmək üçün əsaslı gözlənti olmadığı təqdirdə tam və ya qismən silinir. Bu adətən Təşkilat borcalanın silinməsi nəzərdə tutulan məbləği ödəmək üçün kifayət qədər pul vəsaiti yaradacaq aktivlərivə ya gəlir mənbəyinin olmadığını müəyyən etdikdə baş verir. Bu qiymətləndirmə fərdi aktiv səviyyəsində həyata keçirilir. Silinmə, tanınmanın dayandırılması hadisəsini təmsil edir.

Təşkilat silinmiş maliyyə aktivləri ilə bağlı hüquqi tədbirlər həyata keçirə bilər. Təşkilatın həyata keçirdiyi hüquqi tədbirlər nəticəsində əldə edilmiş vəsaitlər, EOKZ-nin azalması üzrə gəlirə səbəb olur.

**Maliyyə öhdəlikləri və kapital**

**Borc və ya kapital alətləri olaraq təsnifat**

Borc və kapital alətləri müqavilə üzrə razılaşmaların mahiyyəti və maliyyə öhdəliyinin və səmərəli alətin anlayışlarına uyğun olaraq maliyyə öhdəlikləri və ya kapital kimi təsnif edilir.

**Maliyyə öhdəlikləri**

Maliyyə öhdəliyinin tanınması, bu öhdəlik üzrə ödənişlər yerinə yetirildikdə, öhdəlik ləğv edildikdə və ya müddəti başa çatdıqda dayandırılır.

Mövcud maliyyə öhdəliyi eyni borc verəndən əhəmiyyətli dərəcədə fərqli şərtlərlə başqa maliyyə öhdəliyi ilə əvəz edildikdə və ya mövcud öhdəliyin şərtləri əhəmiyyətli dərəcədə dəyişdirilildikdə, belə bir mübadilə və ya dəyişiklik ilkin öhdəliyin tanınmasının dayandırılması və yeni öhdəliyin tanınması kimi qəbul edilir və müvafiq qalıq dəyərində olan fərq mənfəət və ya zərərdə tanınır.

**Borc alınmış vəsaitlər**

Borc alınmış vəsaitlər əvvəlcə borc vəsaitləri ilə əlaqəli olan buraxılış xərcləri çıxılmaqla alınmış vəsaitlərin ədalətli dəyərinə bərabər olan dəyərdə tanınır. İlkin tanınmadan sonra faiz yaradan borc vəsaitləri effektiv faiz dərəcəsi metodundan istifadə edəilrək amortizasiya olunmuş maya dəyərində ölçülür. Amortizasiya olunmuş maya dəyəri buraxılış üçün nəzərdə tutulan bütün xərcləri və hesablaşma üzrə bütün diskont və mükafatlar nəzərə alınmaqla hesablanır. Gəlir və zərərlər öhdəliklərin tanınmasının dayandırılması və ya dəyərsizləşməsi, habelə amortizasiya prosesi zamanı mənfəət və zərər haqqında hesabatda tanınır.

**Buraxılmış borc qiymətli kağızları**

Buraxılmış borc qiymətli kağızları amortizasiya olunmuş maya dəyərində əks etdirilir. Əgər Təşkilat özünün buraxılmış borc qiymətli kağızlarını alırsa, onlar maliyyə vəziyyəti haqqında hesabatdan silinir və öhdəliyin balans dəyəri ilə ödənilmiş kompensasiya arasındakı fərq borcun vaxtından əvvəl silinməsindən yaranan gəlirlərə daxil edilir.

**Törəmə maliyyə alətləri**

Təşkilat tərəfindən daxil edilmiş valyuta törəmə maliyyə alətləri, bir qayda olaraq, standartlaşdırılmış müqavilə şərtləri və qaydaları əsasında peşəkar bazar qarşı tərəfləri ilə birjadankənar bazarda alınır. Törəmə alətlər bazar faiz dərəcələrinin, valyuta məzənnələrinin və ya şərtlərinə nisbətən digər dəyişənlərin dəyişməsi nəticəsində potensial əlverişli (aktivlər) və ya əlverişsiz (öhdəliklər) şərtlərinə malikdir. Törəmə maliyyə aktivləri və öhdəliklərinin məcmu ədalətli dəyəri vaxtaşırı əhəmiyyətli dərəcədə dəyişə bilər.

Forvard müqavilələri gələcəkdə müəyyən bir qiymətə və tarixə müəyyən maliyyə alətini almaq və ya satmaq üçün olan müqavilələrdir. Forvardlar birjadankənar bazarda həyata keçirilən fərdiləşdirilmiş müqavilələrdir.

**Təşkilat icarəçi qismində**

Təşkilat qısa müddətli icarələr və aşağı dəyərli aktivlərin icarəsi istisna olmaqla, bütün icarələr üçün vahid tanıma və ölçmə yanaşmasını tətbiq edir. Təşkilat icarə ödənişlərini həyata keçirmək üçün icarə öhdəliklərini, eləcə də əsas aktivlərdən istifadə hüququ təmin edən istifadə hüquqlarını aktiv olaraq tanıyır.

**Aktivlərdən istifadə hüququ**

Təşkilat aktivlərdən istifadə hüququnu icarənin başlanğıc tarixində tanıyır (əsas aktivin istifadə üçün mövcud olduğu tarix). Aktivlərdən istifadə hüququ yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla maya dəyəri ilə ölçülür və icarə öhdəliklərinin yenidən ölçülməsi üçün tənzimlənir. Aktivlərdən istifadə hüququnun dəyərinə tanınmış icarə öhdəliklərinin məbləği və alınmış icarə təşviqləri çıxılmaqla başlama tarixinə qədər və ya daha əvvəl edilmiş icarə ödənişləri daxildir. Aktivlərdən istifadə hüququ daha qısa icarə müddəti ərzində düz xətt əsasında amortizasiya olunur. İcarəyə götürülmüş aktivin mülkiyyəti icarə müddətinin sonunda Təşkilata keçirsə və ya dəyəri bir alış opsiyasının həyata keçirilməsini əks etdirirsə, amortizasiya aktivin təxmin edilən faydalı ömrü istifadə olunmaqla hesablanır. Aktivlərdən istifadə hüququ da dəyərsizləşməyə məruz qalır.

**İcarə öhdəlikləri**

İcarənin başlanğıc tarixində Təşkilat, icarə müddəti ərzində həyata keçiriləcək icarə ödənişlərinin cari dəyəri ilə ölçülmüş icarə öhdəliklərini tanıyır. İcarə ödənişlərinə, hər hansı alınacaq güzəştli icarə ödənişləri, indeksdən və ya dərəcədən asılı olan dəyişkən icarə ödənişləri çıxılmaqla qalıq dəyər zəmanəti ilə ödənilməsi ehtimal olunan məbləğlər daxil olmaqla sabit ödənişlər (maddi sabit ödənişlər daxil olmaqla) daxildir. İcarə ödənişlərinə, həmçinin Təşkilat tərəfindən həyata keçirilməsinə əsaslı olaraq müəyyən edilmiş satınalma opsionunun icra qiyməti və icarə müddəti Təşkilatın ləğv etmə seçimini həyata keçirdiyini əks etdirirsə, icarəyə xitam verildiyi hallarda tətbiq olunan cərimələrin ödənişləri də daxildir.

İndeksdən və dərəcədən asılı olmayan dəyişkən icarə ödənişləri, ödənişə səbəb olan hadisə və ya şərtin baş verdiyi dövrdə xərc olaraq (mal və material ehtiyatlarının istehsalı üçün çəkilmədiyi təqdirdə) tanınır.

İcarə ödənişlərinin cari dəyərini hesablayarkən, icarəyə aid olan konkret faiz dərəcəsinin təyin olunması mümkün olmadığı üçün Təşkilat icarə müqaviləsinin qüvvəyə mindiyi tarixdə mövcud olan əlavə borcun cəlb edilməsi üzrə faiz dərəcəsindən istifadə edir. Müqavilənin qüvvəyə mindiyi tarixdən sonra, icarə öhdəliklərinin məbləği faizlərin artmasını əks etdirmək üçün artırılır və edilmiş icarə ödənişləri üçün azaldılır.

Bundan əlavə, icarə öhdəliklərinin qalıq dəyəri hər hansı bir modifikasiya və ya icarə müddətində, eləcə də icarə ödənişlərində hər hansı bir dəyişiklik olduqda (bu cür icarə ödənişlərini təyin etmək üçün istifadə olunan indeks və ya faiz dərəcəsindəki dəyişiklik nəticəsində gələcək ödənişlərdə dəyişikliklər) və ya əsas aktivin satın alınması üçün hər hansı bir seçimin qiymətləndirilməsi üzrə dəyişiklik olduğu təqdirdə, yenidən ölçülür.

**Əmlak və avadanlıqlar**

Daşınmaz əmlak və avadanlıqlar yığılmış köhnəlmə və yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla ilkin dəyərlə göstərilir.

Hər hesabat tarixində Təşkilat əmlakın və yaxud avadanlığın dəyərsizləşmə əlamətinin olub-olmamasını qiymətləndirir. Dəyərsizləşmənin baş verdiyinə dəlalət edən ən azı bir belə əlamət olarsa, Təşkilat, iki rəqəmdən ən yüksəyi kimi bərpa edilə bilən məbləği müəyyən edir: satış xərcləri çıxıldıqdan sonra aktivin ədalətli dəyəri və istifadə dəyəri. Əgər əmlak və avadanlığın balans dəyəri onların bərpa edilə bilən dəyərindən yüksəkdirsə, onlar bərpa edilə bilən məbləğə qədər silinir və fərq mənfəət və zərər hesabatında dəyərsizləşmə zərəri kimi hesablanır.

Əmlakın çıxdaş edilməsi ilə bağlı gəlir və zərərlər onların balans dəyəri əsasında hesablanır və mənfəət və zərər hesabatında əməliyyat xərcləri kimi nəzərə alınır.

Təmir və texniki qulluq xərcləri çəkilən zaman mənfəət və zərər hesabatında tanınır.

Köhnəlmə, əmlak, avadanlıq və qeyri-maddi aktivlərin qalıq dəyərinə onların faydalı iqtisadi ömrü nəzərə alınmaqla hesablanmış dərəcələrdən istifadə etməklə tətbiq edilir. Faydalı iqtisadi ömür təxminləri, qalıq dəyərləri və köhnəlmə/amortizasiya metodları hər bir hesabat tarixində yenidən təhlil edilir və təxminlərdə olan dəyişikliklərin təsiri prospektiv olaraq aşağıdakı dərəcələrdə tətbiq edilir:

| | |
|---|---|
| Mebel və avadanlıqlar | 20-33% |
| Kompüter avadanlıqları | 33% |
| Digər aktivlər | 20% |
| Aktivlərdən istifadə hüququ | icarə müqaviləsinin müddəti üzrə olmaqla |

Əmlak və avadanlıqlar hesabdan silindikdə və ya onların davamlı istifadəsi artıq heç bir iqtisadi mənfəət gətirmədikdə, belə aktivlərin tanınması dayandırlılır. Əmlak və avadanlıq obyektlərinin satılaraq hesabdan silinməsi və ya istismardan çıxarılmasından irəli gələn hər hansı gəlir və ya zərərlər belə aktivlərin qalıq dəyəri ilə satışdan əldə olunmuş gəlirlər arasında fərq kimi müəyyən edilir və mənfəət və ya zərər hesablarında tanınır.

**Qeyri-maddi aktivlər**

Qeyri-maddi aktivlərə proqram təminatına və onların tələb üzrə formalaşdırılmasına ayrılan investisiyalar daxildir.

Müəyyən istismar müddəti olan ayrı-ayrılıqda alınmış qeyri-maddi aktivlər yığılmış köhnəlmə və yığılmış dəyərsizləşmə zərəri çıxılmaqla ilkin dəyər ilə uçotda qeyd edilir. Amortizasiya aktivin təxmin edilən faydalı istismar müddəti ərzində düz xətt metodundan istifadə etməklə uçotda tanınır. Təxmin edilən faydalı istismar müddəti və köhnəlmə metodu gələcək dövrlər üzrə uçota alınan təxminlərdəki hər hansı dəyişikliklərin təsiri nəzərə alınmaqla hər hesabat dövrünün sonunda təhlil edilir. Ayrılıqda alınmış və qeyri-müəyyən istismar müddətləri olan qeyri-maddi aktivlər yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla ilkin dəyərlə uçota alınır.

***Qeyri-maddi aktivlərin tanınmasının dayandırılması.*** Qeyri-maddi aktivlər satılaraq hesabdan silindikdə yaxud onların sonrakı istismarı və ya satılması gələcəkdə iqtisadi mənfəət gətirmədikdə, belə aktivlərin tanınması dayandırılır. Qeyri-maddi aktivlərin tanınmasının dayandırılmasından yaranan gəlir və ya zərər, belə aktivlərin balans dəyəri ilə satışdan əldə olunan xalis gəlir məbləği arasındakı fərq kimi ölçülür və aktivin tanınması dayandırıldığı zaman mənfəət və ya zərər haqqında hesabatda tanınır.

***Qudvildən başqa maddi və qeyri-maddi aktivlərin dəyərsizləşməsi.*** Hər bir hesabat dövrünün sonunda Təşkilat öz maddi və qeyri-maddi aktivlərini dəyərsizləşmə zərərlərinin baş verməsini təyin etmək məqsədi ilə təhlil edir. Əgər belə hal mövcud olarsa bu aktiv üzrə əldə edilməsi mümkün olan məbləğ təyin edilir və dəyərsizləşmə zərərinin məbləği (əgər varsa) hesablanır. Fərdi aktiv üzrə əldə edilməsi mümkün olan məbləğin təyin edilməsi mümkün olmadıqda Təşkilat aktivin aid olduğu nağd pul əmələ gətirən biznes vahidlərinin qalıq dəyərini təhlil edir.

Hal-hazırda istifadə edilməyən və qeyri-müəyyən faydalı ömrü olan qeyri-maddi aktivlər isə bu aktivlərin dəyərsizləşməsi üzrə hər hansı bir göstərici olduqda və ya ən az ildə bir dəfə olmaqla dəyərsizləşmə üçün təhlil edilir.

**Müsadirə edilmiş girovlar**

Təşkilat məqsədə müvafiq hesab edildiyi hallarda müştərilərin öhdəlikləri müqabilində girov təminatı alır. Girov adətən müştərinin müvafiq əmlakının müsadirə olunmasını nəzərdə tutur və Təşkilata müştərinin həm cari, həm də gələcək öhdəlikləri ilə əlaqədar əmlaka qarşı iddianın irəli sürülməsi üçün əsas yaradır.

Təşkilatın müvafiq hesab etdiyi müəyyən hallarda aktivlər ödənişi yerinə yetirilməyən kreditlərin bərpa olunması məqsədilə müsadirə olunur. Müsadirə edilmiş girov ilk olaraq həmin girovun aid olduğu kreditin qalıq dəyərinə bərabər məbləğdə tanınır. Müsadirə edilmiş aktivlər balans dəyəri və satış dəyəri çıxılmaqla ədalətli dəyərdən daha aşağı olan məbləğ ilə ölçülür.

**Vergi qanunvericiliyi**

Vergi xərcləri cari və təxirə salınmış vergi xərclərinin cəmindən ibarətdir.

Cari vergi xərci hesabat dövrü ərzində yaranmış vergi mənfəəti əsasında hesablanır. Məcmu gəlir hesabatındakı bəzi gəlir və xərclərin digər dövrlərdə vergi bazasına aid ediləcəyinə və bəzi maddələrin heç bir vaxt vergi bazasını hesablayarkən istifadə edilməyəcəyinə görə vergi mənfəəti maliyyə hesabatlarındakı mənfəətdən fərqlənir. Təşkilatın cari mənfəət vergisi xərci, hesabat dövründə qüvvədə olan vergi dərəcələrindən istifadə etməklə hesablanır.

Təxirə salınmış vergi isə aktiv və öhdəliklərin mühasibat uçotuna uyğun balans dəyərləri ilə onların vergiyə uyğun qalıq dəyərləri arasındakı fərqlərdən yaranan və gələcəkdə ödəniləcək və ya geri alınacaq məbləğlərin əsasında hesablanır və bu zaman qalıq öhdəliyi üsulundan istifadə edilir. Təxirə salınmış vergi öhdəliyi ümumiyyətlə bütün vergi bazasını artıran maddələr üçün hesablanır, təxirə salınmış vergi aktivi isə bu aktivdən gələcəkdə istifadə etmək üçün kifayət qədər mənfəətin olması təxmini nəzərə alınaraq tanınır. Müvəqqəti fərqlərin qudvildən və ya mühasibat mənfəətinə və vergi mənfəətinə təsir göstərməyən digər aktiv və öhdəliklərin ilkin tanınması zamanı yarandığı hallarda (biznes kombinasiyaları istisna olmaqla), belə vergi aktiv və öhdəlikləri tanınmır.

Təxirə salınmış vergi aktivinin balans dəyəri hesabat tarixində nəzərdən keçirilir və əgər gələcəkdəki mənfəət əldə edilməsi ilə bağlı təxminlər bu aktivi reallaşdırmağa imkan vermirsə bu vergi aktivinin dəyəri tam və ya qismən bu təxminlərə uyğunlaşdırılmaq üçün azaldılır.

Təxirə salınmış vergi aktivləri və öhdəlikləri qüvvəyə minmiş və ya hesabat dövrünün sonuna tam həcmdə qüvvə ilə vergi dərəcələrinə (və vergi qanunlarına) əsaslanmaqla aktivin satıldığı və ya öhdəliyin yerinə yetirildiyi dövrdə tətbiq olunacağı gözlənilən vergi dərəcəsi ilə ölçülür.

**Faiz gəliri və xərcinin tanınması**

Faiz gəliri və xərcləri amortizasiya olunmuş dəyərdə və ya DMGVƏD ilə əlavə etmə əsasında, effektiv faiz metodundan istifadə etməklə, borc alətləri üzrə uçota alınır. Bu metoda əsasən, faiz gəlirləri və xərclərinə müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış və effektiv faiz dərəcəsinin tərkib hissəsi olan bütün komissiya və haqlar, sövdələşmə xərcləri, eləcə də bütün digər mükafat və ya güzəştlər daxildir.

Effektiv faiz dərəcəsinə aid olan komissiya haqlarına maliyyə aktivinin yaradılması və ya alınması, yaxud maliyyə öhdəliyinin (məsələn, ödəmə qabiliyyətinin qiymətləndirilməsi, zəmanətlərin və ya girovun dəyərləndirilməsi və qeydə alınması, maliyyə alətinin təqdim edilməsi şərtlərinin razılaşdırılması və sövdələşmə sənədlərinin hazırlanması haqları) buraxılması ilə əlaqədar alınmış və ya ödənilmiş komissiya haqları daxildir.

Bazar faiz dərəcələri ilə kreditlərin verilməsi üzrə öhdəlik üçün Təşkilat tərəfindən alınmış komissiya haqları, Təşkilatın xüsusi kredit müqaviləsini imzalayacağı ehtimal edildikdə və kreditin verilməsindən sonra qısa müddət ərzində onun realizasiyasını planlaşdırmadıqda effektiv faiz dərəcəsinin tərkib hissəsi hesab edilir. Təşkilat kredit verilməsi üzrə öhdəlikləri MZVƏD ilə ölçülən maliyyə öhdəlikləri kimi təsnif etmir.

Kredit üzrə dəyərsizləşmə ilə əldə edilmiş və ya satın alınmış maliyyə aktivləri üçün effektiv faiz dərəcəsi ehtimal edilən pul vəsaitlərinin hərəkəti (ilkin ehtimal olunan kredit zərərləri də daxil olmaqla) ilkin tanınma zamanı ədalətli dəyərə (adətən alış qiyməti ilə) diskont edilmiş dərəcəsidir. Nəticədə, effektiv faiz dərəcəsi kredit uçotu ilə tənzimlənir.

Faiz gəlirləri, maliyyə aktivlərinin ümumi qalıq dəyərinə effektiv faiz dərəcəsini tətbiq etməklə hesablanır:

I. kredit üzrə dəyərsizləşməyə uğramış (3-cü Mərhələ) maliyyə aktivləri üzrə faiz dərəcəsi onların effektiv faiz dərəcəsini amortizasiya dəyərinə (EOKZ çıxılmaqla) tətbiq etməklə hesablanır; və
II. əldə edildikdə və ya satın aldıqda kredit zərərinə məruz qalmış maliyyə aktivləri, amortizasiya dəyərinə tətbiq edilən kreditə müvafiq olaraq düzəliş edilmiş effektiv faiz dərəcəsi tətbiq olunmaqla.

**Haqq və komissiya gəlirinin tanınması**

Kreditlərin verilməsinə görə komissiyalar birbaşa əlaqədar xərclər ilə birlikdə təxirə salınır və kredit üzrə effektiv faiz dərəcəsinə düzəliş kimi uçotda tanınır. Kreditin ayrılması öhdəliyinin xüsusi kredit razılaşmasının bağlanması ilə nəticələnəcəyi ehtimal edilən hallarda, kreditin ayrılması öhdəliyi üzrə komissiyalar birbaşa əlaqədar xərclər ilə birlikdə təxirə salınır və nəticədə verilən kreditin effektiv faiz dərəcəsinə düzəliş kimi uçotda tanınır. Kreditin ayrılması öhdəliyinin xüsusi kredit razılaşmasının bağlanması ilə nəticələnəcəyi ehtimal edilmədiyi hallarda, kreditin ayrılması öhdəliyi üzrə komissiyalar kredit öhdəliyi müddətinin qalan dövrü üzrə mənfəət və ya zərər uçotunda tanınır. Kreditin ayrılması öhdəliyinin müddəti kredit verilmədən başa çatarsa, belə öhdəliyə görə komissiya müddət başa çatdığı anda mənfəət və ya zərərdə tanınır. Kredit xidməti haqları xidmətlərin yerinə yetirildiyi təqdirdə gəlirlər kimi uçotda tanınır. Bütün digər komissiyalar yalnız xidmətlər göstərildikdə tanınır.

**Təqaüd və digər mükafatlar üzrə öhdəliklər**

Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq, Təşkilat işçilərin əmək haqlarından təqaüd ayırmaları tutur və onları Dövlət Sosial Müdafiə Fonduna köçürür. Bu xərc müvafiq əmək haqqının alındığı dövrə aid edilir. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər işçilər tərəfindən seçilmiş təqaüd fondu tərəfindən həyata keçirilir. Təşkilat Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu tərəfindən nəzərdə tutulmuş təqaüd proqramından başqa hər hansı bir digər təqaüd proqramlarında iştirak etmir. Bundan əlavə, Təşkilatda hesablanması tələb olunan pensiya müavinətləri və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

**Əməliyyat vergiləri**

Azərbaycan Respublikasında Təşkilatın fəaliyyəti ilə əlaqədar olaraq hesablanan bir sıra digər vergilər tətbiq edilir. Belə vergilər əməliyyat xərclərinin tərkib hissəsi kimi mənfəət və ya zərər və məcmu gəlirlər haqqında hesabata daxil edilir.

**Ehtiyatlar**

Ehtiyatlar Təşkilatın keçmişdə baş vermiş hadisənin nəticəsi olaraq hazırda öhdəliyi (hüquqi yaxud konstruktiv) olduqda tanınır; bu zaman Təşkilatdan öhdəliyin yerinə yetirilməsinin tələb olunacağı ehtimal edilir və öhdəlik məbləği etibarlı şəkildə hesablana bilir.

Ehtiyatlar kimi tanınan məbləğ öhdəliklə bağlı risk və qeyri-müəyyənlikləri nəzərə almaqla hesabat dövrünün sonunda cari öhdəliyin yerinə yetirilməsi ilə əlaqədar tələb olunan məbləğlərin ən düzgün hesablanmasıdır. Ehtiyat ayırmaları hazırkı öhdəliyin yerinə yetirilməsi üçün hesablanmış pul vəsaitləri axınına istinad etməklə ölçülərsə, onun qalıq dəyəri (pulun zaman dəyərinin təsiri əhəmiyyətli olduqda) həmin pul vəsaitlərinin cari dəyərinə bərabər olur.

**Xarici valyuta mübadiləsi**

Xarici valyutadakı əməliyyatlar, əməliyyatların həyata keçirildiyi tarixdəki məzənnə ilə Təşkilatın müvafiq funksional valyutalarına çevrilir.

a) Hər hesabat dövrünün sonunda maliyyə vəziyyəti haqqında hesabat üzrə aktivlər və öhdəliklər müvafiq tarixdəki məzənnə istifadə edilməklə uçota alınır;
b) Gəlir və xərclər orta məzənnə ilə (dövr üzrə orta məzənnənin bütün əməliyyatlar üzrə mövcud məzənnələrin məcmu təsirinin düzgün bir göstərici hesab edilmədiyi hallarda, gəlir və xərclər əməliyyatın baş verdiyi konkret tarixin məzənnəsi istifadə edilməklə uçota alınır) uçota alınır;
c) kapitalın komponentləri tarixi məzənnə istifadə edilməklə uçota alınır; və
d) Bütün yaranan məzənnə fərqləri digər məcmu gəlirdə tanınır.

Xarici əməliyyat subyektlərinə nəzarət itirildikdə, fərqli təqdimat valyutasına çevrilmə üzrə əvvəllər məcmu gəlir hesablarında tanınmış məzənnə fərqləri satış ilə bağlı olan mənfəət və ya zərərin bir hissəsi kimi il ərzində mənfəət və ya zərər hesablarında uçota alınır.

Təşkilat tərəfindən maliyyə hesabatlarının hazırlanmasında istifadə olunan ilin sonuna olan məzənnələr aşağıdakılardır:

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| 1 ABŞ dolları/AZN | 1.7000 | 1.7000 |
| 1 Avro/AZN | 1.8114 | 1.9265 |
| 1 ABŞ dolları/AZN (illik ortalama məzənnə) | 1.7000 | 1.7000 |

## 3. ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FASİLƏSİZLİK PRİNSİPİNƏ UYĞUN OLARAQ FƏALİYYƏT ÜZRƏ FƏRZİYYƏLƏRLƏ BAĞLI ƏSAS QEYRİ-MÜƏYYƏNLİKLƏRİN MƏNBƏLƏRİ

Təşkilatın maliyyə hesabatlarının hazırlanması hesabat tarixinə təqdim edilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərə biləcək və başa çatmış müddət ərzində gəlir və xərclərin təqdim edilmiş məbləğləri üzrə rəhbərlikdən təxminlərin və mülahizələrin edilməsini tələb edir. Rəhbərlik mütəmadi olaraq öz təxminlərini və mülahizələrini təhlil edir. Rəhbərlik təxminlərini və mülahizələrini tarixi təcrübəyə və müəyyən şərtlər çərçivəsində məntiqli hesab edilən digər faktlara əsaslandırır. Müxtəlif şəraitlərdə və vəziyyətlərdə faktiki nəticələr bu təxminlərdən fərqlənə bilər. Aşağıda göstərilən təxminlər və mülahizələr Təşkilatın maliyyə vəziyyətinin təsvir edilməsi üçün zəruri hesab edilir.

Maliyyə hesabatlarında əks etdirilən məbləğlərə daha çox təsir göstərən peşəkar mülahizələr və növbəti maliyyə ili ərzində aktiv və öhdəliklərin balans dəyərinə əhəmiyyətli düzəlişlərin edilməsinə səbəb olan ehtimallara aşağıdakılar daxildir:

**EOKZ ehtiyatının ölçülməsi**

EOKZ-nin ölçülməsi metodologiyanın, modelin və giriş məlumatlarının müəyyən edilməsini özündə birləşdirdən mühüm bir təxmindir. EOKZ ölçülməsi üzrə metodologiya 22 saylı Qeyddə açıqlanır. Aşağıdakı komponentlərin kredit zərəri ehtiyat üzrə əhəmiyyətli təsiri vardır: defoltun müəyyən edilməsi, KRƏA, defolt ehtimalı ("DE"), Defolt vəziyyətində riskə məruz qalma ("DVRMQ") və defolt zamanı yaranan zərər ("DZYZ"), eləcə də makroiqtisadi ssenarilər üzrə modellər.

Təşkilat müntəzəm olaraq ehtimal olunan kredit zərəri və faktiki zərər arasındakı fərqlərin azaldılması üçün model və giriş məlumatlarını yoxlayır və nəzərdən keçirir. Perspektiv məlumatlar da daxil olmaqla, EOKZ ölçülməsi üzrə ətraflı məlumatlar 22 saylı Qeyddə açıqlanır.

**Kredit Riski üzrə Əhəmiyyətli Artım ("KRƏA")**

Kredit riskinin əhəmiyyətli dərəcədə artdığını müəyyənləşdirmək üçün Təşkilat, hesabat tarixinin sonunda maliyyə alətinin ömürlük müddəti ərzində baş verən defolt riskini ilk dəfə tanınma tarixində mövcud olan risk ilə müqayisə edir. Qiymətləndirmə hesabat dövrünün sonunda kredit riskinin müəyyən bir səviyyəsinə çatmaq üçün deyil, kredit riskinin nisbi artımını təyin etmək məqsədilə nəzərdən keçirilir. Təşkilat müştəri portfelinin davranış aspektləri də daxil olmaqla bir sıra amilləri əhatə edən xüsusi səy göstərmədən və xərc çəkmədən mövcud olan bütün məqbul və dəstəklənən gələcək məlumatları nəzərə alır. Təşkilatın rəhbərliyi kredit riskinin artması üzrə davranış göstəricilərini kredit alətləri üzrə gecikmələrin baş verməsindən öncə təyin etmiş və istər fərdi kredit aləti səviyyəsində, istərsə də alətin aid olduğu portfel səviyyəsində müvafiq sayılan gələcəklə bağlı məlumatları kredit riskinin dəyərləndirilməsi zamanı nəzərə almışdır. 22 saylı Qeydə nəzər salın.

**Maliyyə aktivlərinin modifikasiyası və tanınmasının dayandırılması**

Maliyyə aktivinin modifikasiyası maliyyə aktivinin pul vəsaitlərinin hərəkətini tənzimləyən müqavilə şərtləri yenidən müzakirə edildikdə və ya maliyyə aktivinin ilkin tanınması və ödəmə müddəti arasında başqa şəkildə dəyişdirildikdə baş verir. Modifikasiya dərhal və ya gələcək tarixdə müqavilə üzrə pul vəsaitlərinin axınının miqdarına və/və ya müddətinə təsir göstərir.

Təşkilat yığımı artırmaq və defolt riskini minimuma endirmək üçün maliyyə çətinliyi ilə üzləşən müştərilərin cari kreditlərini restrukturizasiya edir. Borcalanın ilkin müqavilə şərtləri ilə ödənişi həyata keçirməsi üçün bütün səyləri göstərməsinə baxmayaraq, kredit şərtləri defolt və ya defolt riskinin çox olduğu və borcalanın yenidən işlənmiş şərtlərə cavab verə biləcəyi gözlənildiyi hallarda dəyişdirilir.

Yenidən işlənmiş şərtlərə əksər hallarda kreditin müddətinin uzadılması, kreditin pul vəsaitlərinin hərəkəti müddətinə dəyişiklik (əsas və faiz ödənişi) ödəniləcək pul vəsaitlərinin həcminin azaldılması (əsas və bağışlanılacaq faizlər) və digər şərtlər üzrə düzəlişlər daxildir.

Maliyyə aktivi dəyişdirildikdə, Təşkilat bu modifikasiyanın tanınmanın dayandırılması ilə nəticələndiyini qiymətləndirir. Təşkilatın siyasətinə uyğun olaraq, bir dəyişiklik, tamamilə fərqli şərtlərə səbəb olduqda tanınmaya səbəb olur. Dəyişdirilmiş şərtlərin ilkin müqavilə şərtlərindən əhəmiyyətli dərəcədə fərqli olub-olmadığını müəyyən etmək üçün Təşkilat aşağıdakıları nəzərə alır:

- İlkin şərtlər əsasında qalıq pul vəsaitlərinin cari dəyərini, yenidən işlənmiş şərtlər əsasında qalıq pul vəsaitləri ilə müqayisəsi üçün kəmiyyət qiymətləndirilməsi həyata keçirilir, hər iki məbləğ ilkin effektiv faiz dərəcəsi (EFD) ilə ilə diskontlaşdırılır. Cari dəyər fərqi 10%-dən artıqdırsa, Təşkilat bunu əhəmiyyətli dərəcədə fərqli olaraq qəbul edir, bu isə tanınmanın dayandırılması ilə nəticələnir.

Şərtlər əhəmiyyətli dərəcədə fərqlidirsə, Təşkilat ilkin maliyyə aktivini tanımır və ədalətli dəyəri ilə "yeni" aktivi tanıyır və aktiv üçün yeni faiz dərəcəsini yenidən hesablayır. Yenidən müzakirə tarixi, dəyərsizləşmə hesablanması məqsədləri üçün, o cümlədən kredit riskinin əhəmiyyətli dərəcədə artmasının olub-olmadığını müəyyənləşdirmək üçün ilkin tanınma tarixi hesab olunur.

Şərtlər ciddi şəkildə fərqlənmirsə, yenidən razılaşdırma və ya dəyişdirmə tanınma ilə nəticələnmir və Təşkilat maliyyə aktivinin yenidən işlənmiş pul vəsaitlərinin hərəkəti əsasında ümumi balans dəyərini yenidən hesablayır və mənfəət və ya zərərdə dəyişiklik üzrə gəlir və ya zərər tanıyır. Yeni ümumi balans dəyəri dəyişdirilmiş pul vəsaitlərinin hərəkətinin ilkin dəyərində (və ya alınmış və ya əmələ gələn kredit üzrə dəyərsizləşmiş maliyyə aktivləri üçün kredit üzrə tənzimlənmiş EFD ilə) diskontlaşdırılaraq yenidən hesablanır.

Təşkilat maliyyə aktivini yalnız aktivin pul vəsaitlərinin hərəkəti ilə bağlı müqavilə hüquqlarının müddəti (tamamilə fərqli şərtlərlə dəyişdirilmədən yaranan müddəti daxil olmaqla) başa çatdıqda və ya maliyyə aktivi və əsas etibarı ilə aktivə mülkiyyət hüququ ilə bağlı olan bütün risk və mükafat digərinə keçirildikdə tanınır. Əgər Təşkilat mülkiyyət hüququ ilə bağlı bütün riskləri və gəlirləri nə təhvil verirsə, nə də saxlayırsa və ötürülmüş aktivə nəzarəti davam etdirərsə, Təşkilat aktivdəki qorunan payını və ödəməli ola biləcəyi məbləğ üçün əlaqəli öhdəliyi tanıyır. Təşkilat köçürülmüş maliyyə aktivinə sahib olmaqla bağlı bütün riskləri və gəlirləri özündə saxlayırsa, Təşkilat maliyyə aktivini tanımağa davam edir.

**İcarə öhdəliklərinin qiymətləndirilməsi və aktivlərdən istifadə hüququ**

16 saylı MHBS-in tətbiqi aktivlər və icarə öhdəliklərindən istifadə hüququna dair mülahizələr aparmağı tələb edir. İcarə müddətini müəyyən edərkən, Təşkilat yenilənmə həyata keçirmək seçimlərini (və ya ləğv seçimlərini həyata keçirməmək) üçün iqtisadi stimul yaradan bütün fakt və halları nəzərə alır. Müqavilənin icarə elementlərinə malik olub-olmadığını qiymətləndirmək də mühakimə tələb edir. İcarə öhdəliklərini hesablamaq məqsədilə istifadə olunan müvafiq diskont dərəcəsini müəyyənləşdirmək üçün təxminlərin edilməsi tələb olunur.

**Mənfəət vergisi aktivinin istifadəsi**

Təşkilatın rəhbərliyi 31 dekabr 2022 və 2021-ci il tarixlərinə təxirə salınmış mənfəət vergisi üzrə 1,438 min AZN və 1,680 min AZN məbləğlərində qiymətləndirmə ehtiyatı yaratmışdır. 31 dekabr 2022 və 2021-ci il tarixlərinə müvafiq olaraq, təxirə salınmış mənfəət vergisi aktivlərinin balans dəyəri 284 min AZN və 519 min AZN təşkil etmişdir.

Təşkilatın rəhbərliyi gələcəkdə təxirə salınmış mənfəət vergisi aktivinin balans dəyərinin tam şəkildə istifadə olunacağına əmindir.

**Forvard müqaviləsinin qiymətləndirilməsi**

Rəhbərlik törəmə maliyyə alətlərinin qiymətləndirilməsində mülahizələrdən istifadə edir. 14 saylı Qeyddə açıqlandığı kimi, Təşkilat, 31 dekabr 2022-ci il tarixinə şərti məbləği 9,000 min ABŞ dolları və 31 dekabr 2021-ci il tarixinə şərti məbləği 4,000 min ABŞ dolları olan xarici valyutada törəmə müqavilələri bağlamışdır. Rəhbərliyin təxminlərinə görə, 31 dekabr 2022-ci il tarixinə ədalətli dəyər 126 min ABŞ dolları və 31 dekabr 2021-ci il tarixinə isə 306 min ABŞ dolları təşkil edir.

## 4. YENİ VƏ YA YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN VƏ ONLARA DAİR ŞƏRHLƏRİN TƏTBİQİ

Cari ildə Təşkilat Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (MUBSŞ) və MUBSŞ-nin Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Təşkilatın fəaliyyəti üçün münasib olan və 31 dekabr 2022-ci il tarixində başa çatmış hesabat dövrünə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

**Maliyyə Uçotunun Konseptual Əsaslarına İstinad – 3 saylı MHBS-ə edilmiş Düzəliş** – 2020-ci ilin may ayında BMUSŞ tərəfindən "Müəssisələrin birləşməsi" adlı 3 saylı MHBS-ə düzəliş dərc edilmişdir. Düzəliş 2018-ci ilin mart ayında dərc edilmiş "Maliyyə Hesabatlılığının Konseptual Əsasları"na istinad ilə birlikdə, bu düzəlişin tələblərini əhəmiyyətli dərəcədə dəyişmədən, 1989-cu ildə dərc edilmiş "Maliyyə Hesabatlarının Hazırlanması və Təqdimatın Əsasları"na edilən istinadın əvəz olunmasını nəzərdə tutur. Şura eyni zamanda, 37 saylı BMUS və ya "Təminatlar" adlı 21 saylı BMHŞK çərçivəsində, ayrı olaraq yaranırsa, borclar və şərti öhdəliklər üçün yaranan potensial '2 gün' mənfəət və ya zərərlərindən yayınmaq üçün 3 saylı MHBS-in tanınma prinsipinə istisna da əlavə etmişdir. Eyni zamanda, Şura "Maliyyə Hesabatlarının Hazırlanması və Təqdim Olunması Əsasları"na istinadın əvəz edilməsindən təsirlənməyəcək şərti aktivlər üçün 3 saylı MHBS-in mövcud təlimatına dair izahlar verməyi qərarlaşdırmışdır.

**Əmlak, Tikili və Avadanlıqlar: Nəzərdə tutulan İstifadədən əvvəl Daxilolmalar- 16 saylı BMUS-ə edilən düzəlişlər**. 2020-ci ilin may ayında, BMUSŞ müəssisələrin əmlak, tikili və avadanlıqların dəyərindən, rəhbərliyin nəzərdə tutduğu qaydada fəaliyyət göstərə bilməsi üçün həmin aktivləri lazımi yerə və şəraitə çatdırarkən istehsal olunan aktivlərin satışından əldə olunan gəlirləri çıxmağı qadağan edən "Əmlak, Tikili və Avadanlıqlar – Nəzərdə tutulan İstifadədən əvvəl Daxilolmalar" düzəlişini dərc etmişdir. Bunun əvəzinə, müəssisə bu cür aktivlərin satışından əldə olunan gəlirləri və bu aktivlərin istehsal xərclərini mənfəət və zərər hesabında tanıyır.

**Ağır Şərtli Müqavilələr – Müqavilənin Yerinə Yetirilməsinə dair Xərclər – 37 saylı BMUS-ə edilən düzəlişlər**. 2020-ci ilin may ayında, BMUSŞ, 37 saylı BMUS-ə müqavilənin ağır şərtli və ya zərər yaradan olduğunu qiymətləndirərkən müəssisənin hansı xərcləri nəzərə alması barədə düzəlişlər etmişdir. Düzəlişlər "birbaşa əlaqəli xərc yanaşması"nı tətbiq edir. Mal və ya xidmətləri təmin etmək üçün birbaşa müqaviləyə aid olan xərclərə həm artan xərclər, həm də müqavilə fəaliyyətləri ilə birbaşa əlaqəli xərclərin bölüşdürülməsi daxildir. Ümumi və inzibati xərclər birbaşa müqavilə ilə əlaqəli deyil və müqavilə üzrə qarşı tərəf üçün açıq şəkildə ödənilməli olmadıqca istisna olunur.

**1 saylı MHBS "Beynəlxalq Maliyyə Hesabatlılığı Standarlarının İlk dəfə Tətbiqi" – ilkin tətbiq edən törəmə olaraq. BMUSŞ 2018-2020-ci il üzrə illik təkmilləşdirmələr** çərçivəsində "Beynəlxalq Maliyyə Hesabatı Standartlarının ilk dəfə qəbul edilməsi" adlı 1 saylı MHBS-də dəyişiklik etmişdir. Dəyişiklik ana müəssisənin MHBS-ə keçid tarixinə əsasən, ana müəssisə tərəfindən bildirilən məbləğlərdən istifadə etməklə, məcmu çevirmələr üzrə fərqlərini ölçmək üçün 1 saylı MHBS-in D16 (a) bəndini tətbiq etməyi seçən bir törəmə müəssisəyə icazə verir. Bu düzəliş 1 saylı MHBS-in D16 (a) bəndini tətbiq etməyi seçən bir asılı və ya birgə müəssisəyə də tətbiq edilir.

**9 saylı MHBS Maliyyə Alətləri - Maliyyə öhdəliklərinin silinməsi üzrə "10 faiz" dəyərində test üzrə iştirak haqqı.** MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ 9 saylı MHBS-ə düzəliş etmişdir. Düzəliş bir müəssisənin yeni və ya dəyişdirilmiş maliyyə öhdəliyinin şərtlərinin ilkin maliyyə öhdəliyinin şərtlərindən əhəmiyyətli dərəcədə fərqli olub-olmadığını qiymətləndirərkən əlavə etdiyi haqları aydınlaşdırır. Bu rüsumlara yalnız borcalan və ya borcverən tərəfindən başqasının adından ödədiyi və ya aldığı haqlar daxil olmaqla borcalanla borc verən arasında ödənilən və ya alınan ödənişlər daxildir. Müəssisə düzəlişi müəssisənin ilk dəfə tətbiq etdiyi illik hesabat dövrünün əvvəlində və ya ondan sonra dəyişdirilmiş və ya mübadilə edilmiş maliyyə öhdəliklərinə tətbiq edir.

**"41 saylı BMUS Kənd Təsərrüfatı" – Ədalətli dəyər ölçmələrində vergi.** MHBS standartları prosesinə 2018-2020-ci illərdə illik təkmilləşdirmələrin bir hissəsi olaraq, BMUSŞ "Kənd Təsərrüfatı Standartı" adlı 41 saylı BMUS-ə dəyişiklik etmişdir. Dəyişiklik 41 saylı BMUS-in 22-ci bəndində müəssisələrin, 41 saylı BMUS çərçivəsində aktivlərin ədalətli dəyərini ölçərkən vergitutma üçün pul axınlarını istisna etməsi tələbini aradan qaldırır.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartların Təşkilatın maliyyə hesabatlarına maddi təsir göstərəcəyi gözlənilmir.

## 5. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Hazırkı maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Təşkilat tərəfindən, qüvvəyə minmə tarixindən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir. Təşkilat bu yeni və düzəliş edilmiş standartları və şərhləri, əgər tətbiq olunarsa, qüvvəyə mindikdən sonra qəbul etmək niyyətindədir.

**17 saylı MHBS "Sığorta müqavilələri"** 2017-ci ilin may ayında dərc olunmuşdur və "Sığorta müqavilələri" adlı 4 saylı MHBS-i əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə "Sığorta müqavilələri" adlı 17 saylı MHBS-i tətbiq etməlidir.

17 saylı MHBS, 1 yanvar 2023-cü il tarixində və ya ondan sonra başlayan illik hesabat dövrləri üçün qüvvədədir. "Müştərilərlə Müqavilələrdən Əldə Edilən Gəlir" adlı 15 saylı MHBS və "Maliyyə Alətləri" adlı 9 saylı MHBS standartları ilə birlikdə tətbiq olunduqda erkən tətbiqinə icazə verilir. Bu standart Təşkilata şamil edilmir.

**Uçot Siyasətinin Açıqlanması – 1 saylı BMUS və 2 saylı MHBS Metodik Sənədi** - 2021-ci ilin fevral ayında BMUSŞ 1 saylı BMUS və "Əhəmiyyətlilik haqqında mühakimələrin yürüdülməsi " adlı 2 saylı MHBS Metodik Sənədə düzəlişlər etmişdir. Bu düzəlişlər müəssisələrə uçot siyasəti haqqında açıqlamalar edərkən əhəmiyyətliliklə bağlı mühakimələrin tətbiq edilməsinə kömək edilməsi məqsədilə təlimat və nümunələri təqdim edir. Düzəlişlər müəssisələr üçün "əhəmiyyətli" uçot siyasətləri haqqında məlumatın açıqlanması tələbini onların "əhəmiyyətli" uçot siyasətinin açıqlanması tələbi ilə əvəz etməklə və mühasibat uçotu siyasəti ilə bağlı açıqlamalar barədə qərar qəbul edərkən müəssisələrin uçot siyasəti haqqında daha faydalı məlumatı açıqlamaqda kömək etmək məqsədi daşıyır.

1 saylı BMUS-ə edilən düzəlişlər 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik dövrlər üçün tətbiq edilir və düzəlişlərin daha erkən tətbiqinə icazə verilir. 2 saylı Metodik Sənədə edilən düzəlişlər əhəmiyyətlilik anlayışının mühasibat uçotu siyasəti məlumatlarına tətbiqi ilə bağlı məcburi olmayan təlimatları ehtiva etdiyi üçün, bu düzəlişlər üçün qüvvəyə minmə tarixi müəyyən edilməmişdir.

**Uçot təxminlərinin müəyyən edilməsi – 8 saylı BMUS-ə edilən Düzəlişlər** - 2021-ci ilin fevral ayında BMUSŞ "uçot təxminləri" anlayışını təqdim edən 8 saylı BMUS-ə düzəlişi dərc etmişdir.

Düzəlişlər müəssisələrin uçot siyasətindəki dəyişiklikləri uçot təxminlərindəki dəyişikliklərdən necə fərqləndirməli olduğunu və xətaların aradan götürülməsini izah edir. Həmçinin, bu düzəlişlər mühasibat uçotu təxminlərini hazırlamaq üçün müəssisələrin ölçmə üsullarından və giriş məlumatlarından necə istifadə etdiyini aydınlaşdırır.

Düzəlişlər 1 yanvar 2023-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və həmin dövrün başlanğıcında və ya ondan sonra baş verəcək uçot siyasəti və uçot təxminlərindəki dəyişikliklərə tətbiq edilir. Bu tip faktlar açıqlanarsa, düzəlişlərin erkən tətbiqinə icazə verilir.

**Eyni əməliyyatdan yaranan aktiv və öhdəliklərə aid təxirə salınmış vergilər – 12 saylı BMUS-ə edilən Düzəlişlər** - 2021-ci ilin may ayında Şura 12 saylı BMUS-ə uyğun olaraq müəssisələrdən ilkin tanınma zamanı vergi bazasını artıran və azaldan bərabər məbləğdə müvəqqəti fərqlərə səbəb olan əməliyyatlar üzrə təxirə salınmış vergini tanımağı tələb edir.

Düzəlişlər təqdim edilən ən erkən müqayisəli dövrün əvvəlində və ya ondan sonra baş verən əməliyyatlara tətbiq edilməlidir. Bundan əlavə, təqdim olunan ən erkən müqayisəli dövrün əvvəlində icarə və istismardan çıxarma öhdəlikləri ilə bağlı bütün gəlirdən çıxılan və vergiyə cəlb olunan müvəqqəti fərqlər üçün təxirə salınmış vergi aktivi (kifayət qədər vergi tutulan mənfəətin olması şərtilə) və təxirə salınmış vergi öhdəliyi də tanınmalıdır.

BMUSŞ, satış kimi uçota alınması nəzərdə tutulan 15 saylı MHBS-in tələblərinə cavab verən satış və geri icarə əməliyyatlarını sonradan satıcı-icarədarın necə ölçməsini aydınlaşdırmaq üçün **"Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi"ni (16 saylı MHBS-ə edilən Düzəlişlər) düzəlişlərlə birgə** dərc etmişdir. **Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi (16 saylı MHBS-ə edilən Düzəlişlər)** satıcı-icarədardan istifadə hüququnu özündə saxlayan hər hansı gəlir və ya zərər məbləğini tanımamaq üçün geri icarədən irəli gələn icarə öhdəliyini sonradan ölçməsini tələb edir. Yeni tələblər satıcı-icarədarı icarənin qismən və ya tam xitam verilməsi ilə bağlı hər hansı gəlir və ya zərəri mənfəət və ya zərərdə tanınmasını qadağa etmir. Düzəlişlər 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir. Düzəlişlərin daha erkən tətbiqinə icazə verilir.

Müəssisənin hesabat dövründən sonra on iki ay ərzində riayət etməli olduğu şərtlərin, öhdəliklərin təsnifatına təsirini müəyyən etmək üçün 2022-ci ilin oktyabr ayında BMUSŞ **"Kovenantlar ilə bağlı uzunmüddətli öhdəliklər (1 saylı BMUS-ə Düzəlişlər)"** adlı düzəlişi dərc etmişdir. Düzəlişə əsasən öhdəliyin cari və ya uzunmüddətli olaraq təsnifləşdirilməsinə yalnız müəssisənin hesabat tarixində və ya ondan əvvəl riayət etməli olduğu şərtlər təsir edir. Bundan əlavə, müəssisə maliyyə hesabatı üzrə qeydlərdə hesabatın istifadəçilərinə kovenantlar ilə uzunmüddətli öhdəliklərin on iki ay ərzində qaytarıla biləcəyi riskini nəzərdə tutacağı məlumatları açıqlamalıdır. Düzəlişlər 1 yanvar 2024-cü il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üzrə qüvvəyə minir.

**10 saylı MHBS "Konsolidə Edilmiş Maliyyə Hesabatları" və 28 saylı BMUS (düzəlişlər): "İnvestor və onun Asılı və ya Birgə Müəssisəsi arasında Aktivlərin Satışı və ya Ötürülməsi"**–10 saylı MHBS və 28 saylı BMUS-ə edilən düzəlişlər investor, onun asılı müəssisəsi və birgə müəssisə arasında aktivlərin satışı və ya ötürülməsi üzrə vəziyyəti ehtiva edir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə konsolidasiya edilən əlaqəli və birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və zərər hesabatında əlaqəsi olmayan investorun həmin əlaqəli və ya birgə müəssisədə olan payına düşən hissəyə müdaxilə etməmək şərtilə tanınmasını tələb edir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodu ilə konsolidasiya edilən assosiasiya və birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyanın ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan investorların yeni assosiasiya və ya birgə müəssisədəki payları müqabilində tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi BMUSŞ tərəfindən hələ müəyyən edilməmişdir, lakin düzəlişlərin erkən tətbiqinə icazə verilir.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartların Təşkilatın maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyi gözlənilmir.

## 6. PUL VƏSAİTLƏRİ VƏ ONLARIN EKVİVALENTLƏRİ

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
| Nağd pul vəsaitləri | 9 | 14 |
| Rezident banklardakı cari hesablar | 2,014 | 3,696 |
| Tranzitdə nağd pul vəsaitləri | 502 | 370 |
| **Cəmi pul vəsaitləri və onların ekvivalentləri** | **2,525** | **4,080** |

EOKZ üzrə ölçülmələr məqsədi üçün pul vəsaitləri və onların ekvivalentləri 1-ci Mərhələyə aid edilmişdir. Bu qalıqlar üçün EOKZ əhəmiyyətli məbləğ təşkil etmir, ona görə də Təşkilat pul vəsaitləri və onların ekvivalentləri üçün kredit zərərləri üzrə ehtiyat tanımamışdır.

## 7. MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR

| | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il |
|---|---|---|
- Kredit Şöbələri – Bu şöbələr Təşkilatın borclarının keyfiyyətini qiymətləndirir və dəyərsizləşmə və təminat üçün ehtiyatlarla bağlı tövsiyələr hazırlayır. Kredit Şöbəsi kredit risklərinin idarə edilməsi ilə bağlı metodologiyaların həyata keçirilməsinə nəzarət edir, kredit riskinn minimallaşdırılması üçün addımlar atır və kredit riski daşıyan əməliyyatlar haqda qərar qəbul edir. Bu şöbə filiallar üçün kredit limitlərini müəyyən edir, təhlillər həyata keçirir və kredit riskinə nəzarət edir.

**Maliyyə şöbəsi.** Maliyyə şöbəsi, Təşkilatın aktivləri və öhdəliklərinn gündəlik idarəetməsi, Təşkilatın likvidlik mövqeyinin hesablanması və planlaşdırılması, Təşkilatın əməliyyat məkanları arasında pul vəsaitlərinin yenidən bölüşdürülməsi barədə məsuliyyət daşıyır. Maliyyə Şöbəsi AÖİK tərəfindən təyin edilən limit və likvidlik əmsallarına və AÖİK tərəfindən likvidlik riskinin optimallaşdırılması barədə qəbul edilən qərarların tətbiqinə nəzarət edir.

**Daxili audit.** Daxili Audit risklərin idarə edilməsi proseslərini müstəqil şəkildə yoxlayır, rəhbərliyi aşkarlanmış çatışmazlıqlar barədə məlumatlandırır və risklərin idarə edilməsi prosesinin inkişafına dair müvafiq tövsiyələrini təqdim edir.

**Risklərin ölçülməsi və hesabatlılıq sistemləri.** Risklərin idarə edilməsi metodunun seçimi, nisbi əhəmiyyətlilik və ya risklərin ehtimalını müəyyənləşdirən risk faktorından asılıdır hansı ki, Təşkilatın maliyyə vəziyyəti hesabatına əks təsirini göstərə bilər. Təşkilat hər bir riski analiz etmək və ölçməklə yanaşı, toplam risklərin səviyyəsini də müəyyən edir. Bu səbəbdən, hər növ risk üçün, aşağıdakı risklərin ölçülməsi metodları tətbiq edilmişdir:

- kredit portfeli və kredit riski əmsallarının kredit riski təhlilləri;
- balansdan kənar risk;
- faiz dərəcəsinin ödəmə riski və aktivlər və öhdəliklərin faiz dərəcəsi boşluğu təhlili;
- yerli və xarici valyutalarda edilmiş ödənişlərin likvidlik riski boşluğunun təhlili; likvidlik əmsallarının təhlili, likvidlik ehtiyatının müəyyənləşdirilməsi;
- xarici valyutalarda edilmiş ödənişlərin valyuta riski boşluğu təhlili; valyuta mövqeyinin təhlili;
- Təşkilatın maliyyə vəziyyətinə təsiri olan bütün əməliyyatlar üçün əməliyyat riski, fəaliyyətlərin (təşəbbüs, icra və nəzarət) bir-birindən ayrılıqda aparılmasını təmin edən və əməliyyatların başa çatdırılması üçün vacib olan sistemlər tətbiq edilmişdir.

Risklərin ölçülməsi, Təşkilatın fəaliyyət göstərdiyi zaman üzləşə biləcəyi ehtimal edilən zərəri əks etdirir. Maliyyə Şöbəsi, risklərin ayrı-ayrılıqda təhlillərinə əsaslanaraq, hər ay risklərin cari vəziyyəti və əsas səbəblərini göstərən mülahizələr hazırlayır.

Xüsusilə, aylıq AÖİK iclaslarında, faiz dərəcəsi, likvidlik, valyuta və digər bazar risklərinin statusu haqda hesabat verilir.

Həmçinin, Funksional risklərin (əməliyyat – texnoloji, hüquqi, strateji, etibarlı) statusu hər ay İdarə Heyətinə təqdim edilir. Bu hesabatlar rüblük İdarə Heyəti və Audit Komitəsi iclaslarında yoxlanılır.

***Risklərin azaldılması.*** Təşkilatın risklərin minimallaşdırılması üçün, aşağıdakı metodlardan istifadə edir:

- Kredit riskinin azaldılması üçün zəmanət və girovların qəbul edilməsi;
- Diversifikasiya – bir-biri ilə əlaqəli olmayan aktivlərin seçimi.

**Kredit riski**

**Müştərilərə verilən kreditlər üçün kredit risklərinin ölçülməsi**

Kredit riskləri bazar şəraiti, gözlənilən pul axınları və zamanda olan dəyişikliklər nəticəsində dəyişdiyindən, risklərin idarə edilməsi məqsədilə kredit riskinin ehtimal edilməsi qəlizdir və modellərdən istifadəni tələb edir. Aktivlər portfelinin kredit riskinin dəyərləndirilməsi, defolt ehtimalına olduqda, əlavə olaraq müvafiq zərər nisbətlərinin və qarşı tərəflər arasında defolt korrelyasiyaların qiymətləndirilməsinə gətirib çıxarır. Təşkilat, risklərin idarə edilməsi hesabatlılığı məqsədilə kredit həcmini kredit riskinə məruz qalma kimi nəzərə alır və birləşdirir. Təşkilat kredit riskini Defolt Ehtimalı, Defolt Vəziyyətində Riskə Məruz Qalma (DVRMQ) və Defolt Zamanı Yaranan Zərərdən (DZYZ) istifadə etməklə müəyyənləşdirir. Bu 9 saylı MHBS çərçivəsində EOKZ-nin ölçülməsi üçün istifadə olunan yanaşma ilə eynidir.

**Ehtimal olunan kredit zərərinin ölçülməsi**

9 saylı MHBS aşağıda qeyd edildiyi kimi, dəyərsizləşmə üçün, ilkin tanınmadan başlayaraq kredit keyfiyyətindəki dəyişikliklərə əsaslanan və 3 mərhələdən ibarət model irəli sürür:

- İlkin tanınmada kredit üzrə dəyərsizləşməyə məruz qalmayan maliyyə aləti 1-ci Mərhələ ilə təsnif olunur və kredit riskləri Təşkilat tərəfindən davamlı olaraq nəzarətdə saxlanılır;
- İlkin tanınmadan başlayan müddətdə kredit riskində əhəmiyyətli artım (KRƏA) aşkarlandığı halda, maliyyə aləti 2-ci Mərhələyə keçirilir, lakin kredit üzrə dəyərsizləşməyə məruz qalmır;
- Maliyyə aləti kredit dəyərsizləşməsinə məruz qalırsa, 3-cü Mərhələyə keçirilir;
- 1-ci Mərhələdə yer alan maliyyə alətləri, növbəti 12 ay ərzində baş vermə ehtimalı olan defolt hadisələrdən qaynaqlanan ömürlük gözlənilən kredit itkiləri payı ilə eyni məbləğdə ölçülən EOKZ-yə sahibdir. 2-ci və 3-cü Mərhələdə olan alətlərin EOKZ-ləri ömürlük əsasda gözlənilən kredit itkilərinə əsaslanaraq ölçülür;
- Gələcəkyönümlü məlumatları nəzərə almaq, 9 saylı MHBS-ə uyğun şəkildə EOKZ-nin ölçülməsi üçün yayılmış metoddur;
- Satın alınmış və ya yaranmış kredit üzrə dəyərsizləşməyə məruz qalan maliyyə aktivləri ilkin tanınmada kredit üzrə dəyərsizləşməyə məruz qalan maliyyə aktivləridir. Onların EOKZ-ləri həmişə ömürlük əsasda ölçülür (3-cü Mərhələ).

**Kredit riskində əhəmiyyətli artma**

İlkin tanınmadan sonra maliyyə aləti üzrə defolt riskində əhəmiyyətli artımın baş verməsini müəyyən edərkən Təşkilat əlavə xərc və səy tələb olunmadan mövcud və müvafiq məlumatlar əsasında məntiqli və sübutlarla dəstəklənən parametrlərdən istifadə edir. Bu zaman Təşkilatın tarixi məlumatlarından və kredit dəyərləndirilməsi üzrə mütəxəssis rəylərindən, gələcəklə bağlı məlumatlardan, eləcə də həm kəmiyyət, həm də keyfiyyət baxımından məlumatlardan və təhlillərdən istifadə olunur. Bu dəyərləndirmənin əsas məqsədi aşağıda göstərilənləri müqayisə etməklə kredit riskində əhəmiyyətli dəyişikliklərin baş verib-vermədiyini təyin etməkdir:

- Hesabat tarixinə defolt ehtimalının qalan faydalı ömrü;
- Verilmiş kreditin tanınması tarixində təxmin edilmiş ömürlük DE-nin cari tarixə qalan faydalı ömrü (əvvəlcədən ödəmə ehtimalları üzrə dəyişiklik üçün müvafiq olaraq düzəlişlər edilməklə).

Təşkilat kredit riskində mühüm artımın olub-olmadığını müəyyənləşdirmək üçün 3 meyardan istifadə edir:

- Defolt ehtimalındakı hərəkətlərə əsaslanan kəmiyyət xarakterli test;
- Dözümlülük statusu; və
- Ödənişlərin 30 gündən artıq gecikməsi.

"Dözümlülük" yenidənqurma zamanı baş verir, məsələn borcgötürənin maliyyə vəziyyətinin kreditin verildiyi tarixlə müqayisədə pisləşməsi və kreditin ödəniş sxemində dəyişiklik üçün müraciət etməsi nəticəsində faizlərin ya əsas məbləğin ödənilməsi müddətinin uzadılması. Yenidənqurma yalnız, Təşkilatın müvafiq bölməsi borcgötürənin yenilənmiş ödəmə cədvəlinə uyğun hərəkət etmə qabiliyyətinin olduğuna inandığı halda baş verir.

Əsas ssenaridən istifadə etməklə müxtəlif iqtisadi ssenarilər əsasında həm ilkin tanınma anında, həm də sonrakı hesabat tarixlərində DE parametri təyin edilir. Müxtəlif iqtisadi ssenarilər istifadə edildikdə müxtəlif DE nəticələri əldə edilir. Bu müxtəlif ssenarilərin hər birinin ağırlıqlı ortalaması ilə əldə edilən DE istifadə edilməklə kredit riskində əhəmiyyətli dəyişikliklərin baş verib-vermədiyi təyin edilir. Gələcəkyönümlü məlumatlara iqtisadiyyat sahəsi üzrə mütəxəssislərin, maliyyə təhlilçilərinin, dövlət orqanlarının, müvafiq məlumat mərkəzlərinin və bənzər təşkilatların hazırladığı hesabatlar əsasında Azərbaycan iqtisadiyyatının gələcək perespektivləri, eləcə də faktiki və proqnozlaşdırılan iqtisadi məlumatlar əsasında müxtəlif daxili və kənar mənbələrdən əldə edilən məlumatlar daxildir.

**Defoltun tərifi**

Defoltun tərifi EOKZ-nin müəyyənləşməsində mühüm ünsürdür. Defolt, EOKZ-lərin ölçülməsinə və kredit riskində mühüm artımın identifikasiyasına təsir edən defolt ehtimalının (DE) komponenti olduğu üçün, onun tərifi EOKZ-lərin məbləğinin ölçülməsində və zərər müavinətinin 12 aylıq yoxsa ömürlük EOKZ-yə əsaslandığının müəyyənləşməsində istifadə edilir.

Təşkilat aşağıdakıları defolt hadisəsini təşkil edən amillər olaraq nəzərə alır:

- Müqavilənin bitmə tarixindən 90 və ya daha artıq gün keçməsi; və ya
- Müqavilədə qeyd edilən kredit öhdəliklərinin Təşkilat tərəfindən tam şəkildə qarşılanmasının mümkün olmaması.

Defoltun tərifi müxtəlif aktiflərin müxtəlif xüsusiyyətlərini əks etdirmək üçün müvafiq qaydada modifikasiya edilir. Borc almış şəxsin kredit öhdəliklərini yerinə yetirməyəcəyini dəyərləndirərkən Təşkilat həm kəmiyyət, həm də keyfiyyət göstəricilərini nəzərə alır. Kredit üzrə ödənişin gecikməsi və eyni şəxs tərəfindən digər bir öhdəliyin ödənilməməsi kimi kəmiyyət göstəriciləri təhlil zamanı istifadə edilən əsas məlumatlardandır. Defolt ehtimalını hesablayarkən, Təşkilat daxildə işlənib hazırlanmış və ya kənar şəxslər tərəfindən təchiz edilmiş müxtəlif məlumat mənbələrindən istifadə edir.

Aşağıdakı diaqramda 9 saylı MHBS-in dəyərsizləşmə tələbləri göstərilmişdir (satın alınmış və ya yaranmış olaraq kredit üzrə dəyərsizləşməyə məruz qalan maliyyə aktivləri istisna olmaqla):

| 1-ci Mərhələ | 2-ci Mərhələ | 3-cü Mərhələ |
|---|---|---|
| (İlkin tanınma) | (İlkin tanınmadan sonra kredit riskində mühüm artım) | (Kredit üzrə dəyərsizləşməyə məruz qalan aktivlər) |
| 12 aylıq ehtimal olunan kredit zərəri | Ömürlük ehtimal olunan kredit zərəri | Ömürlük ehtimal olunan kredit zərəri |

3-cü Mərhələdəki kredit üzrə dəyərsizləşməyə məruz qalan aktivlər, 2-ci Mərhələyə keçməzdən öncə Müqavilənin əhəmiyyətli kredit öhdəliklərini qarşıladıqdan sonra 6 aylıq sınaq müddətinə məruz qalır.

**Silinmələr**

Mütəmadi olaraq kollektiv tarixi olaraq kreditlərin geri qayıtması üzrə aparılan təhlillər nəticəsində, bir neçə ay defolt vəziyyəti davam edən ("ADV") kreditlər üzrə əlavə vəsaitlərin əldə edilməsi gözlənilmədikdə, Təşkilatın siyasətinə uyğun olaraq kreditlər kollektiv şəkildə silinir.

Maliyyə aktivləri üzrə ödənilməmiş, hesabatlılıq tarixində silinmiş və icra tədbirləri davam edən məbləğ 459 min AZN təşkil edir.

**Oxşar kredit riski xüsusiyyətlərinə əsasən qruplaşdırma**

Maliyyə aktivləri DE hesablanması məqsədilə 2 seqmentə bölünmüşdür:

- Kiçik (2,000 ABŞ dollarına qədər olan kredit məbləğləri);
- Böyük (2,001 ABŞ dollarından böyük olan kredit məbləğləri).

Yuxarıda qeyd edilən seqmentlər, Böyük seqmentin nisbətən daha ciddi dəyərləndirmə nümayiş etdirdiyini bəyan edərək, müştərinin kredit qabiliyyətinin dəyərləndirilməsini əks etdirir. Defolt dərəcələri arasında fərq seqmentlər arasında maksimallaşdırıldığı kimi, tarixi defolt dərəcəsi də ciddilik göstəricisi kimi istifadə edilmişdir.

**Reytinq modeli**

Bütün mövcud informasiya (məhsul qrupları, sənayelər və s.) hər bir seqment üçün daxili reytinqləri formalaşdırmaq üçün istifadə olunur. Bu yolla, eyni risk xüsusiyyətlərinə sahib qruplar yaradılır və seqmentin DE əyrisinə düzəliş etmək üçün istifadə edilir.

**Kredit riskində əhəmiyyətli artma**

Cari hesabat tarixində maliyyə aləti üzrə qalıq Ömürlük DE, bu maliyyə alətinin ilkin tanındığı dövrün sonuna olan qalıq Ömürlük DE-yə nisbətən 20% artdıqda Təşkilat maliyyə alətinin əhəmiyyətli dərəcədə kredit riskinin artmasına məruz qaldığını hesab edir.

Aşağıdakı cədvəl KRƏA üzrə DE-nin dəyişməsi səviyyələrinə müvafiq olaraq 31 dekabr 2022 və 31 dekabr 2021-ci il tarixinə EOKZ-yə olan təsiri əks etdirir. EOKZ-də artım (müsbət rəqəmlər) dəyərsizləşmə üzrə daha yüksək məbləğlərin tanınmasının zəruri olduğunu təmsil edir.

| **DE dəyişikliyi hüdudu üzrə EOKZ həssaslığı** | | | | **31 dekabr 2022-ci il tarixindəki EOKZ üzərindəki təsir** | | |
|---|---|---|---|---|---|---|
| | Tətbiq olunan faktiki hüdud (%) | Hüdudda dəyişiklik (+%) | Hüdudda dəyişiklik (-%) | Aşağı hüdud | Dəyişiklik yoxdur | Yuxarı hüdud |
| KİÇİK | 150 | | | | 415 | |
| BÖYÜK | 150 | | | | 1,932 | |

| **DE dəyişikliyi hüdudu üzrə EOKZ həssaslığı** | | | | **31 dekabr 2021-ci il tarixindəki EOKZ üzərindəki təsir** | | |
|---|---|---|---|---|---|---|
| | Tətbiq olunan faktiki hüdud (%) | Hüdudda dəyişiklik (+%) | Hüdudda dəyişiklik (-%) | Aşağı hüdud | Dəyişiklik yoxdur | Yuxarı hüdud |
| KİÇİK | 150 | | | | 442 | |
| BÖYÜK | 150 | | | | 2,001 | |

**EOKZ-nin ölçülməsi**

EOKZ-nin ölçülməsində əsas faktorlar aşağıdakı dəyişənlərin strukturudur:

- Defolt Ehtimalı (DE);
- Defolt Zamanı Yaranan Zərər (DZYZ);
- Defolt Vəziyyətində Riskə Məruz Qalma (DVRMQ).

Bu parametrlər ümumi olaraq daxildə tərtib olunmuş statistik modellər və digər tarixi məlumatlar əsasında əldə edilir.

**Defolt Ehtimalı (DE)**

DE, borcalanın maliyyə öhdəliyi üzrə defolt vəziyyətini (yuxarıdakı "Defolt və kredit üzrə dəyərsizləşmə anlayışına görə") ya da sonrakı 12 ay ərzində (12 aylıq DE) və ya öhdəliyin qalan ömrü boyu (Ömürlük DE) ödəmə ehtimalını əks etdirir.

Ömürlük DE, mövcud 12 aylıq DE-yə bir ödəmə profilini tətbiq edərək tətbiq etdirilir. Ödəniş müddəti, kreditlərin ömrülük ilkin tanıma nöqtəsindən etibarən defolt vəziyyətinin necə inkişaf etdiyinə nəzarət edir. Ödəmə müddəti tarixi müşahidə edilmiş məlumatlara əsaslanır və portfel və kredit dərəcələri qrupundakı bütün aktivlər arasında eyni olduğu qəbul edilir. Bu, tarixi təhlil ilə dəstəklənir.

Defolt Ehtimalı, ehtimal dərəcələrinə əsaslanan etibarlılıq funksiyası ilə modelləşdirilir.

Ehtimal dərəcələri yarı parametrik bir model olan Koks adlanan nisbi ehtimallar modeli ilə əldə edilir. Bu model dəyişənlər üzrə təsir üçün amillərin sadə formasından və müstəqil parametrlərin dəqiq dəyərindən istifadə edir. Əsas parametr qeyri-parametrik metodlarla əldə edilir. Makroiqtisadi mərhələlər zamandan asılı bir dəyişən vasitəsilə birbaşa ehtimal funksiyasına daxil edilə bilər. Əldə edilən ehtimal nisbətlərindən həmin zaman kəsiyi ("PiT") DE, yəni müvafiq bir tarixə təyin edilmiş son DE alınır.

Koks modeli üzrə nisbi ehtimallar modelinin müşahidə müddəti 5 ildir.

Aşağıda 31 dekabr 2022 və 2021-ci il tarixlərinə, Təşkilatın dəyişkən iqtisadi ehtimallarında istifadə olunan cari ehtimallardan makroiqtisadi parametrlərin mümkün dəyişiklikləri üzrə yaranmış EOKZ üzrə dəyişikliklər göstərilmişdir.

**2022**

| | | | |
|---|---|---|---|
| İstifadə edilmiş makroiqtisadi parametrlər | ÜDM | | |
| həssaslıq testi üçün makro parametrlərin dəyişdirilməsi % | 50% | | |
| | + 50% | Dəyişiklik yoxdur | -50% |
| KİÇİK | 414 | 415 | 416 |
| BÖYÜK | 1,929 | 1,932 | 1,935 |
| **Cəmi** | **2,343** | **2,347** | **2,351** |

**2021**

| | | | |
|---|---|---|---|
| İstifadə edilmiş makroiqtisadi parametrlər | ÜDM | | |
| həssaslıq testi üçün makro parametrlərin dəyişdirilməsi % | 50% | | |
| | + 50% | Dəyişiklik yoxdur | -50% |
| KİÇİK | 439 | 442 | 445 |
| BÖYÜK | 1,997 | 2,001 | 2,006 |
| **Cəmi** | **2,435** | **2,443** | **2,451** |

**Defolt zamanı yaranan zərər (DZYZ)**

DZYZ defoltun baş verməsi zamanı ehtimal olunan zərərin həcmini təyin edir. Təşkilat DZYZ-nin parametrlərini defolt etmiş qarşı tərəflərə irəli sürülmüş tələblərin nəticəsində əldə edilmiş bərpa dərəcələri ilə bağlı tarixçəyə əsasən qiymətləndirir. DZYZ yalnız pul vəsaitləri şəklində geri qaytarılmış məbləğləri nəzərə alır. DZYZ diskont amili olaraq EFD-dən (Effektiv Faiz Dərəcəsi) istifadə etməklə diskontlaşdırılmış pul vəsaitlərinin hərəkəti əsasında hesablanır.

Təminatlı kreditlər üzrə girov dəyərlərindən, təminatsız və zəmanətli kreditlər üzrə isə bərpa faizlərindən istifadə edilir.

**Defolt vəziyyətində riskə məruz qalma (DVRMQ)**

DVRMQ Təşkilatın defolt zamanı növbəti 12 aylıq müddətdə (12 aylıq) və ya ömürlük (ömürlük DVRMQ) ehtimal olunan məbləğlərinə əsaslanır.

**Gələcəkyönümlü məlumatların daxil edilməsi**

Təşkilat perspektiv məlumatı həm kredit riskin dəyərləndirilməsində həm də EOKZ ölçülməsində daxil edir.

Təşkilat keçmiş məlumatların təhlillərini istifadə edərək kredit riskinin və kredit zərərinin portfel üçün olan əsas səbəblərini aşkarlamış və sənədləşdirmişdir, makroiqtisadi dəyişikliklərin DE və bərpa faizlərinə olan təsirini dəyərləndirmişdir. Təhlildə iştirak edən makroiqtisadi dəyişkən, ÜDM-in təbii artım tempidir.

***Kredit riskinə maksimal məruz qalma.*** Təşkilatın kredit riskinə maksimum məruz qalması çox dəyişkəndir və ümumi iqtisadi və fərdi risklərdən asılıdır.

Aşağıdakı cədvəl balans və balansdankənar maddələr üzrə kredit riskinə maksimum məruz qalmanı əks etdirir. Balansda olan maliyyə aktivləri üçün maksimum məruz qalma əvəzləşdirmə və girovun dəyəri nəzərə alınmamışdan öncə bu aktivlərin balans dəyəri hesab olunur. Şərti öhdəliklər və kredit verilməsi üzrə təəhhüdlərlə bağlı Təşkilatın məruz qaldığı risk məbləği, bütün qarşılıqlı tələblər, girovlar və zəmanətlər dəyərsiz hesab olunduğu təqdirdə bu alətlər üzrə müqavilə dəyəri həcmində nəzərə alınır.

Kredit riskinə maksimum məruz qalma aşağıda göstərilmişdir:

| | Maksimum məruz qalma | Qoyulmuş girov | Xalis məruz qalma |
|---|---|---|---|
| **31 dekabr 2022-ci il** | | | |
| Banklarda yerləşdirilmiş vəsaitlər | 2,516 | - | 2,516 |
| Müştərilərə verilmiş kreditlər, xalis | 44,875 | - | 44,875 |
| Digər maliyyə aktivləri | 136 | - | 136 |
| **31 dekabr 2021-ci il** | | | |
| Banklarda yerləşdirilmiş vəsaitlər | 4,066 | - | 4,066 |
| Müştərilərə verilmiş kreditlər, xalis | 29,065 | - | 29,065 |
| Digər maliyyə aktivləri | 136 | - | 136 |

**Girov və digər kredit əlavələrinin təhlili**

Təşkilat, kredit zərəri hesab edilən maliyyə aktivləri üçün girov təminatını yaxından izləyir, çünki Təşkilatın potensial kredit zərərini azaltmaq üçün girov sahibi olma ehtimalı daha yüksəkdir. Potensial zərərləri azaltmaq üçün saxlanılan kredit üzrə dəyərsizləşməni və əlaqəli girov olan maliyyə aktivləri aşağıda göstərilmişdir:

| **31 dekabr 2022-ci il** | **Ümumi dəyəri** | **Zərər ehtiyatı** | **Amortizasiya olunmuş dəyər** | **Girovun ədalətli dəyəri** |
|---|---|---|---|---|
| Defolt vəziyyətində kredit portfleli (3-cü Mərhələ) | | | | |
| Kiçik kreditlər | 439 | (48) | 391 | - |
| İri kreditlər | 1,749 | (1,190) | 559 | - |
| **Cəmi** | **2,188** | **(1,238)** | **950** | **-** |

| **31 dekabr 2021-ci il** | **Ümumi balans dəyəri** | **Zərər ehtiyatı** | **Amortizasiya olunmuş dəyər** | **Girovun ədalətli dəyəri** |
|---|---|---|---|---|
| Defolt vəziyyətində kredit portfleli (3-cü Mərhələ) | | | | |
| Kiçik kreditlər | 513 | (296) | 217 | - |
| İri kreditlər | 1,413 | (925) | 488 | - |
| **Cəmi** | **1,926** | **(1,221)** | **705** | **-** |

Aşağıdakı cədvəllər müştərilərə verilmiş kreditlər üzrə məbləğlərlə bağlı kredit risklərini Kreditin Məbləğə Nisbəti (KMN) istifadə edilməklə təsnifləşdirirlər. KMN kreditin ümumi məbləğinin və ya kredit verilməsi üçün öhdəlik götürüldüyü məbləğin qarşı tərəfdən götürülmüş girova olan nisbəti kimi hesablanır. Girovun dəyərini hesablayarkən onun rəsmiləşdirilməsi və satılması üçün tələb olunan xərclər nəzərə alınmır.

Aşağıdakı cədvəl Təşkilatın verdiyi kredit üzrə dəyərsizləşməyə uğramış kiçik kreditlər üzrə KMN əmsallarının paylanmasını əks etdirir:

| | **2022** | | | |
|---|---|---|---|---|
| | **Cəmi kredit portfeli** | | **Kredit üzrə dəyərsizləşmə üzrə kredit portfeli (3-cü Mərhələ)** | |
| Kreditin Dəyərə Nisbəti (KDN) | Ümumi balans dəyəri | Zərər ehtiyatı | Ümumi balans dəyəri | Zərər ehtiyatı |
| Girovsuz | 11,410 | (415) | 439 | (48) |
| **Cəmi** | **11,410** | **(415)** | **439** | **(48)** |

| | **2021** | | | |
|---|---|---|---|---|
| | **Cəmi kredit portfeli** | | **Kredit üzrə dəyərsizləşmə üzrə kredit portfeli (3-cü Mərhələ)** | |
| Kreditin Dəyərə Nisbəti (KDN) | Ümumi balans dəyəri | Zərər Ehtiyatı | Ümumi balans dəyəri | Zərər ehtiyatı |
| Girovsuz | 7,639 | (442) | 513 | (296) |
| **Cəmi** | **7,639** | **(442)** | **513** | **(296)** |

Aşağıdakı cədvəldə KDN-nin Təşkilatın kredit zərərinə uğramış iri kreditlər portfeli üçün paylanması göstərilir:

| | **2022** | | | |
|---|---|---|---|---|
| | **Cəmi kredit portfeli** | | **Kredit üzrə dəyərsizləşmə üzrə kredit portfeli (3-cü Mərhələ)** | |
| Kreditin Dəyərə Nisbəti (KDN) | Ümumi balans dəyəri | Zərər ehtiyatı | Ümumi balans dəyəri | Zərər ehtiyatı |
| Girovsuz | 35,812 | (1,932) | 1,749 | (1,190) |
| **Cəmi** | **35,812** | **(1,932)** | **1,749** | **(1,190)** |

| | **2021** | | | |
|---|---|---|---|---|
| | **Cəmi kredit portfeli** | | **Kredit üzrə dəyərsizləşmə üzrə kredit portfeli (3-cü Mərhələ)** | |
| Kreditin Dəyərə Nisbəti (KDN) | Ümumi balans dəyəri | Zərər ehtiyatı | Ümumi balans dəyəri | Zərər Ehtiyatı |
| Girovsuz | 23,869 | (2,001) | 1,413 | (925) |
| **Cəmi** | **23,869** | **(2,001)** | **1,413** | **(925)** |

**Balansdankənar risklər.** Təşkilat balansdankənar risklərin idarə olunması üçün əsasən balans üzrə mövcud risklərin idarəsində tətbiq etdiyi eyni idarə siyasətindən istifadə edir. Kredit verilməsi üzrə öhdəliklərin dəyərləndirilməsi zamanı müştərilər və qarşı tərəflər müştərilərə verilmiş kreditlər üzrə tətbiq edilən eyni təhlillərə məruz qalırlar. Qarşı tərəfin gücündən əməliyyatın mahiyyətindən ibarət olaraq qarşı tərəfdən girovun təmin edilməsi istənilə bilər.

***Coğrafi konsenterasiya.*** Təşkilatın 31 dekabr 2022-ci il tarixində maliyyə aktivləri və öhdəliklərinin coğrafi konsenterasiyası aşağıdakı kimi olmuşdur:

| | **Azərbaycan Respublikası** | **İƏT ölkələri** | **Qeyri-İƏT ölkələri** | **Cəmi** |
|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivaletləri | 2,525 | - | - | 2,525 |
| Müştərilərə verilmiş kreditlər, xalis | 44,875 | - | - | 44,875 |
| Digər maliyyə aktivləri | - | 136 | - | 136 |
| **Cəmi maliyyə aktivləri** | **47,400** | **136** | **-** | **47,536** |
| Borc alınmış vəsaitlər | 5,996 | 4,705 | 11,610 | 22,311 |
| Buraxılmış borc qiymətli kağızları | 8,950 | - | - | 8,950 |
| İcarə öhdəlikləri | 1,301 | - | - | 1,301 |
| Digər maliyyə öhdəlikləri | 882 | 260 | - | 1,142 |
| **Cəmi maliyyə öhdəlikləri** | **17,129** | **4,965** | **11,610** | **33,704** |
| **Xalis mövqe** | **30,271** | **(4,829)** | **(11,610)** | **13,832** |

Təşkilatın 31 dekabr 2021-ci il tarixində maliyyə aktivləri və öhdəliklərinin coğrafi konsenterasiyası aşağıdakı kimi olmuşdur:

| | **Azərbaycan Respublikası** | **İƏT ölkələri** | **Qeyri-İƏT ölkələri** | **Cəmi** |
|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 4,080 | - | - | 4,080 |
| Müştərilərə verilmiş kreditlər, xalis | 29,065 | - | - | 29,065 |
| Digər maliyyə aktivləri | - | 136 | - | 136 |
| **Cəmi maliyyə aktivləri** | **33,145** | **136** | **-** | **33,281** |
| Borc alınmış vəsaitlər | 8,000 | - | 6,930 | 14,930 |
| Buraxılmış borc qiymətli kağızları | 2,940 | - | - | 2,940 |
| İcarə öhdəlikləri | 977 | - | - | 977 |
| Digər maliyyə öhdəlikləri | 644 | 830 | - | 1,474 |
| **Cəmi maliyyə öhdəlikləri** | **12,561** | **830** | **6,930** | **20,321** |
| **Xalis mövqe** | **20,584** | **(694)** | **(6,930)** | **12,960** |

***Bazar riski.*** Bazar riski bazardakı qiymət və məzənnələr səviyyəsində dəyişikliklərin yaxud onların dalğalanmasının Təşkilatın gəlir və ya kapitalına yaxud da onun biznes məqsədlərinin reallaşdırılması imkanlarına mənfi təsir göstərməsi riskidir.

Bazar riskinə faiz dərəcəsi riski, valyuta riski, kredit spredləri, əmtəə qiymətləri və səhm alətlərinin qiyməti aiddir. Təşkilatın ölçmə üsullarında və ya üzləşdiyi riskdə yaxud da qeyd olunan risklərin idarə edildiyi və ölçüldüyü tərzdə heç bir dəyişikliklər baş verməmişdir.

Təşkilat daxilindəki müəssisələr həm sabit, həm də dəyişkən ("üzən") faiz dərəcələri ilə borc vəsaitlər cəlb etdiyindən Təşkilat faiz riskləri ilə üzləşir. Risk Təşkilat tərəfindən sabit və üzən faiz dərəcələrinin müvafiq şəkildə vəhdəti yaradılmaqla idarə olunur.

AÖİK həmçinin Təşkilatı müsbət faiz marjası ilə təmin edən onun faiz dərəcəsi mövqeyini uyğunlaşdırmaqla faiz riskini və bazar risklərini idarə edir. Maliyyə şöbəsi Təşkilatın cari maliyyə nəticələrinin monitorinqini həyata keçirir, Təşkilatın faiz dərəcələrindəki dəyişikliklərə həssaslığını və mənfəətinə təsirini qiymətləndirir.

Təşkilatın faiz xərci yaradan maliyyə öhdəliklərindən bəziləri ya dəyişkən faiz dərəcəsinə malikdir və ya müqavilə üzrə faiz dərəcələri birtərəfli olaraq borc verən tərəfin istəyi ilə dəyişdirilə bilər. Təşkilat öz faiz dərəcəsi marjasına mütəmadi olaraq nəzarət edir və buna görə də özünü əhəmiyyətli səviyyədə faiz dərəcəsi ilə bağlı riskə və bununla da bağlı nağd vəsaitlərin axınına məruz qalmış hesab etmir.

***Valyuta riski.*** Valyuta riski xarici valyuta mübadiləsi məzənnələrində dəyişikliklər baş verməsi səbəbindən maliyyə alətlərinin dəyəri qeyri-müəyyən olacağı ilə bağlı riskdir. Təşkilat üstünlük təşkil edən xarici valyuta mübadiləsi məzənnəsində dəyişikliyin baş verməsi nəticəsində onun maliyyə vəziyyəti və vəsaitlər hərəkətinin təsirə məruz qala biləcəyi halı ilə üzləşir.

AÖİK təxmin edilən ABŞ dolları məzənnəsinin dəyişməsi və digər makroiqtisadi göstəricilər əsasında açıq valyuta mövqeyinin idarə edilməsi yolu ilə valyuta riskinə nəzarət edir ki, bu da Təşkilata valyutaların milli valyutaya qarşı mübadilə məzənnələrinin dəyişkənliyindən irəli gələn əhəmiyyətli zərərin azaldılması üçün imkan yaradır.

Təşkilat üstünlük təşkil edən xarici valyuta mübadiləsi məzənnəsində dəyişikliyin baş verməsi nəticəsində onun maliyyə vəziyyəti və vəsaitlər hərəkətinin təsirə məruz qala biləcəyi halı ilə üzləşir.

Təşkilatın 31 dekabr 2022-ci il üzrə xarici valyuta məzənnələrindəki dəyişikliklərə məruz qalma mövqeyi aşağıda göstərilir:

| | **AZN** | **ABŞ dolları** | **Avro** | **Cəmi** |
|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 907 | 1,615 | 3 | 2,525 |
| Müştərilərə verilmiş kreditlər, xalis | 44,875 | - | - | 44,875 |
| Digər maliyyə aktivləri | - | 136 | - | 136 |
| **Cəmi maliyyə aktivləri** | **45,782** | **1,751** | **3** | **47,536** |
| Borc alınmış vəsaitlər | 5,996 | 16,315 | - | 22,311 |
| Buraxılmış borc qiymətli kağızları | 8,950 | - | - | 8,950 |
| İcarə öhdəlikləri | 1,301 | - | - | 1,301 |
| Digər maliyyə öhdəlikləri | 758 | 384 | - | 1,142 |
| **Digər maliyyə öhdəlikləri** | **17,005** | **16,699** | **-** | **33,704** |
| Törəmə maliyyə alətləri | **(15,300)** | **15,300** | **-** | **-** |
| **AÇIQ MÖVQE** | **13,477** | **352** | **3** | **13,832** |

Təşkilatın 31 dekabr 2021-ci il üzrə xarici valyuta məzənnələrindəki dəyişikliklərə məruz qalma mövqeyi aşağıda göstərilir:

| | **AZN** | **ABŞ dolları** | **Avro** | **Cəmi** |
|---|---|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 338 | 3,739 | 3 | 4,080 |
| Müştərilərə verilmiş kreditlər, xalis | 29,056 | 9 | - | 29,065 |
| Digər maliyyə aktivləri | - | 136 | - | 136 |
| **Cəmi maliyyə aktivləri** | **29,394** | **3,884** | **3** | **33,281** |
| Borc alınmış vəsaitlər | 8,000 | 6,930 | - | 14,930 |
| Buraxılmış borc qiymətli kağızları | 2,940 | - | - | 2,940 |
| İcarə öhdəlikləri | 977 | - | - | 977 |
| Digər maliyyə öhdəlikləri | 826 | 648 | - | 1,474 |
| **Digər maliyyə öhdəlikləri** | **12,743** | **7,578** | **-** | **20,321** |
| Törəmə maliyyə alətləri | **(6,800)** | **6,800** | **-** | **-** |
| **AÇIQ MÖVQE** | **9,851** | **3,106** | **3** | **12,960** |

Aşağıdakı cədvəldə 31 dekabr 2022 və 2021-ci il tarixlərinə manatın müvafiq xarici valyutalara qarşı mübadilə məzənnəsinin 10% dərəcəsində artması və ya azalması halına qarşı Təşkilatın həssaslığını göstərən təfərrüatlar açıqlanır. Təşkilat daxilində əsas rəhbərlik heyətinə məruzə olunarkən 10%-lik həssaslıq dərəcəsinə istinad edilir və bu dərəcə rəhbərliyin xarici valyuta məzənnələrində kifayət qədər mümkün dəyişikliklərin baş verməsi ilə bağlı qiymətləndirməsini göstərir.

| | **2022-ci il** | |
|---|---|---|
| | **Vergidən əvvəl mənfəətə təsiri** | **Kapitala təsiri** |
| ABŞ dolları məzənnəsinin 10% artması | 36 | 29 |
| ABŞ dolları məzənnəsinin 10% azalması | (36) | (29) |

| | **2021-ci il** | |
|---|---|---|
| | **Vergidən əvvəl mənfəətə təsiri** | **Kapitala təsiri** |
| ABŞ dolları məzənnəsinin 10% artması | 311 | 249 |
| ABŞ dolları məzənnəsinin 10% azalması | (311) | (249) |

**Faiz dərəcəsi riski.** Faiz dərəcəsi riski faiz dərəcəsində dəyişiklikləri maliyyə alətlərinin ədalətli dəyərinə və yaxud maliyyə alətləri üzərində gələcək pul vəsaitlərinin axınına təsir etmə ehtimalından yaranır. Təşkilatın faiz dərəcəsi ilə bağlı siyasəti bazar şərtlərinə əsasən pul vəsaitləri yerləşdirmək və cəlb etmək məqsədilə İdarə Heyəti tərəfindən dövri əsasda nəzər salınır.

Təşkilat bazar mühitindəki mənfi dəyişikliklərdən irəli gələ biləcək potensial itkiləri mütəmadi olaraq hesablamaqla ədalətli dəyərin faiz dərəcəsi riskini idarə edir. Maliyyə Departamenti Təşkilatın cari maliyyə nəticələrinin monitorinqini həyata keçirir, Təşkilatın ədalətli dəyərin faiz dərəcələrindəki dəyişikliklərə həssaslığını və onun gəlirliyinə təsirini hesablayır.

Aşağıda göstərilən həssaslıq təhlili hesabat dövrünün sonunda maliyyə alətləri üzrə faiz riskinə məruzqalma əsasında müəyyən edilmişdir. Təşkilat daxilində faiz dərəcəsi riski barədə əsas idarə heyətinə məlumat verildikdə 50 (0.5%) baza dərəcəsində artım və ya azalmaya istinad edilir ki, bu da rəhbərliyin faiz dərəcələrində mümkün dəyişikliklərin qiymətləndirilməsini əks etdirir.

Faizlərin 50 (0.5%) baza dərəcəsində artdığı/azaldığı və bütün digər dəyişən göstəricilər sabit saxlanıldığı təqdirdə, Təşkilatın:

| | 2022-ci il | | 2021-ci il | |
|---|---|---|---|---|
| | Vergidən əvvəl mənfəətə təsiri | Kapitala təsiri | Vergidən əvvəl mənfəətə təsiri | Kapitala təsiri |
| Faiz dərəcəsinin 0.5% artması | 61 | 49 | 51 | 41 |
| Faiz dərəcəsinin 0.5% azalması | (61) | (49) | (51) | (41) |

**Həssaslıq təhlili üzrə məhdudiyyətlər.** Yuxarıda qeyd olunan cədvəllər digər ehtimallar dəyişmədiyi halda əsas ehtimaldakı dəyişikliyin təsirini əks etdirir. Əslində, ehtimallar və digər amillər arasında qarşılıqlı əlaqə mövcuddur. O cümlədən qeyd etmək lazımdır ki, bu həssaslıqlar sabit deyil və iri yaxud xırda təsirlər bu nəticələrdən interpolyasiya və ya ekstrapolyasiya edilməməlidir.

Yuxarıdakı həssaslıq təhlillərinin digər məhdudiyyətlərinə Təşkilatın yalnız dəqiqliklə proqnozlaşdırılması mümkün olmayan qısamüddətli bazar dəyişikliklərinə dair mövqeyini əks etdirən potensial riski nümayiş etdirmək üçün şərti (hipotetik) bazar dəyişikliklərindən istifadə olunması və bütün faiz dərəcələrinin eyni qaydada hərəkət edəcəyi ilə bağlı təxminlər daxildir.

**Likvidlik riski.** Likvidlik riski ödəniş vaxtı çatdıqda maliyyə alətləri ilə bağlı maliyyə öhdəliklərinin yerinə yetirilməsi üçün kifayət qədər vəsaitlərin mövcud olması ilə bağlı riskdir. Likvidlik riskini idarə etmək üçün Təşkilat aktivlər/öhdəliklərin idarə olunması prosesinin bir hissəsi olaraq müştərilər və Təşkilatın əməliyyatları üzrə gözlənilən gələcək pul vəsaitləri hərəkətinin gündəlik monitorinqini həyata keçirir.

Aşağıda 31 dekabr 2022-ci il tarixinə proqnozlaşdırılmış ödəniş müddətləri əsasında təhlil təqdim edilir:

| | 1 aya qədər | 1 aydan 3 aya qədər | 3 aydan 6 aya qədər | 7 aydan 1 ilə qədər | 1 ildən 5 ilə qədər | 31 dekabr 2022-ci il Cəmi |
|---|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | | |
| Faiz dərəcəli alətlər | | | | | | |
| Müştərilərə verilmiş kreditlər, xalis | 3,779 | 2,805 | 2,781 | 5,998 | 29,512 | 44,875 |
| Cəmi sabit faiz hesablanan maliyyə aktivləri | 3,779 | 2,805 | 2,781 | 5,998 | 29,512 | 44,875 |
| Faiz hesablanmayan maliyyə aktivləri | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 2,525 | - | - | - | - | 2,525 |
| Digər maliyyə aktivləri | - | - | - | 136 | - | 136 |
| Cəmi faiz hesablanmayan maliyyə aktivləri | 2,525 | - | - | 136 | - | 2,661 |
| **Cəmi maliyyə aktivləri** | **6,304** | **2,805** | **2,781** | **6,134** | **29,512** | **47,536** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | |
| Faiz hesablanan maliyyə öhdəlikləri | | | | | | |
| Borc alınmış vəsaitlər | 1,799 | 510 | 1,535 | 6,662 | 11,805 | 22,311 |
| Buraxılmış borc qiymətli kağızları | - | - | - | 2,970 | 5,980 | 8,950 |
| İcarə öhdəlikləri | 37 | 78 | 122 | 270 | 792 | 1,299 |
| Cəmi sabit faiz hesablanan maliyyə öhdəlikləri | 1,836 | 588 | 1,657 | 9,902 | 18,577 | 32,560 |
| Faiz hesablanmayan maliyyə öhdəlikləri | | | | | | |
| Digər maliyyə öhdəlikləri | 882 | 46 | - | 214 | - | 1,142 |
| Cəmi faiz hesablanmayan maliyyə öhdəlikləri | 882 | 46 | - | 214 | - | 1,142 |
| **Cəmi maliyyə öhdəlikləri və təəhhüdlər** | **2,718** | **634** | **1,657** | **10,116** | **18,577** | **33,702** |
| Likvidlik kəsiri | 3,586 | 2,171 | 1,124 | (3,982) | 10,935 | |
| **Məcmu likvidlik kəsiri** | **3,586** | **5,757** | **6,881** | **2,899** | **13,834** | |

Aşağıda 31 dekabr 2021-ci il tarixinə proqnozlaşdırılmış ödəniş müddətləri əsasında təhlil təqdim edilir:

| | **1 aya qədər** | **1 aydan 3 aya qədər** | **3 aydan 6 aya qədər** | **7 aydan 1 ilə qədər** | **1 ildən 5 ilə qədər** | **31 dekabr 2021-ci il Cəmi** |
|---|---|---|---|---|---|---|
| **MALİYYƏ AKTİVLƏRİ** | | | | | | |
| Faiz dərəcəli alətlər | | | | | | |
| Müştərilərə verilmiş kreditlər, xalis | 534 | 3,971 | 1,851 | 11,281 | 11,428 | 29,065 |
| Cəmi sabit faiz hesablanan maliyyə aktivləri | 534 | 3,971 | 1,851 | 11,281 | 11,428 | 29,065 |
| Faiz hesablanmayan maliyyə aktivləri | | | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 4,080 | - | - | - | - | 4,080 |
| Digər maliyyə aktivləri | - | - | - | 136 | - | 136 |
| Cəmi faiz hesablanmayan maliyyə aktivləri | 4,080 | - | - | 136 | - | 4,216 |
| **Cəmi maliyyə aktivləri** | **4,614** | **3,971** | **1,851** | **11,417** | **11,428** | **33,281** |
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | |
| Faiz hesablanan maliyyə öhdəlikləri | | | | | | |
| Borc alınmış vəsaitlər | 152 | - | 37 | 2,831 | 11,910 | 14,930 |
| İcarə öhdəlikləri | 42 | 32 | 92 | 277 | 534 | 977 |
| Cəmi faiz hesablanan maliyyə öhdəlikləri | 194 | 32 | 129 | 3,108 | 12,444 | 15,907 |
| Faiz hesablanmayan maliyyə öhdəlikləri | | | | | | |
| Digər maliyyə öhdəlikləri | 643 | 309 | - | 522 | - | 1,474 |
| Cəmi sabit faiz hesablanmayan maliyyə öhdəlikləri | 643 | 309 | - | 522 | - | 1,474 |
| **Cəmi maliyyə öhdəlikləri və təəhhüdlər** | **837** | **341** | **129** | **3,630** | **12,444** | **17,381** |
| Likvidlik kəsiri | 3,777 | 3,630 | 1,722 | 7,787 | (1,016) | |
| **Məcmu likvidlik kəsiri** | **3,777** | **7,407** | **9,129** | **16,916** | **15,900** | |

***Hesablanmamış maliyyə öhdəliklərinin ödəmə təhlili.*** Aşağıdakı cədvəllərdə Təşkilatın razılaşdırılmış yenidən ödəniş müddəti ilə maliyyə öhdəlikləri üzrə müqavilə əsasında, qalıq ödəmə müddəti ilə qalan göstərilir. Cədvəllər, Təşkilatın ödəməsi tələb oluna biləcəyi ən erkən tarixə əsasən maliyyə öhdəliklərinin diskontlaşdırılmamış pul vəsaitlərinin hərəkəti əsasında tərtib edilmişdir.

Cədvəllərdə həm faiz, həm də əsas pul vəsaitlərinin hərəkəti əks olunur. Faiz axınları dəyişkən dərəcədirsə, bölüşdürülməmiş məbləğ hesabat dövrünün sonundakı faiz əyrilərindən əldə edilir. Müqavilənin müddəti, Təşkilatın ödəməsi tələb oluna biləcəyi ən erkən tarixə əsaslanır.

Aşağıdakı cədvəl 31 dekabr 2022-ci il tarixinə diskontaşdırılmamış maliyyə öhdəliklərinin ödəmə təhlilini göstərir:

| | **1 aya qədər** | **1 aydan 3 aya qədər** | **3 aydan 6 aya qədər** | **7 aydan 1 ilə qədər** | **1 ildən 5 ilə qədər** | **31 dekabr 2022-ci il Cəmi** |
|---|---|---|---|---|---|---|
| **MALİYYƏ ÖHDƏLİKLƏRİ** | | | | | | |
| Faiz dərəcəsi üzrə maliyyə alətləri | | | | | | |
| Borc alınmış vəsaitlər | 1,848 | 825 | 1,826 | 7,227 | 13,195 | 24,921 |
| Buraxılmış borc qiymətli kağızları | 281 | 562 | 5,058 | 4,504 | - | 10,405 |
| İcarə öhdəlikləri | 47 | 94 | 142 | 303 | 842 | 1,428 |
| Cəmi sabit faizli maliyyə öhdəlikləri | 2,176 | 1,481 | 7,026 | 12,034 | 14,037 | 36,754 |
| Faiz gətirməyən maliyyə öhdəlikləri | | | | | | |
| Digər maliyyə öhdəlikləri | 882 | 46 | - | 214 | - | 1,142 |
| Cəmi faiz gətirməyən maliyyə öhdəlikləri | 882 | 46 | - | 214 | - | 1,142 |
| **Cəmi maliyyə öhdəlikləri və təhəddüdlər** | **3,058** | **1,527** | **7,026** | **12,248** | **14,037** | **37,896** |

Aşağıdakı cədvəl 31 dekabr 2021-ci il tarixinə diskontaşdırılmamış maliyyə öhdəliklərinin ödəmə təhlilini göstərir:

| | **1 aya qədər** | **1 aydan 3 aya qədər** | **3 aydan 6 aya qədər** | **7 aydan 1 ilə qədər** | **1 ildən 5 ilə qədər** | **31 dekabr 2021-ci il Cəmi** |
|---|---|---|---|---|---|---|
| MALİYYƏ ÖHDƏLİKLƏRİ | | | | | | |
| Faiz dərəcəsi üzrə maliyyə alətləri | | | | | | |
| Buraxılmış borc qiymətli kağızları | | | | | | |
| Borc alınmış vəsaitlər | 172 | 2 | 104 | 3,114 | 13,605 | 16,997 |
| İcarə öhdəlikləri | 52 | 44 | 111 | 313 | 573 | 1,093 |
| Cəmi sabit faizli maliyyə öhdəlikləri | 224 | 46 | 215 | 3,427 | 14,178 | 18,090 |
| Faiz gətirməyən maliyyə öhdəlikləri | | | | | | |
| Digər maliyyə öhdəlikləri | 643 | 309 | - | 522 | - | 1,474 |
| Cəmi faiz gətirməyən maliyyə öhdəlikləri | 643 | 309 | - | 522 | - | 1,474 |
| **Cəmi maliyyə öhdəlikləri və təhəddüdlər** | **867** | **355** | **215** | **3,949** | **14,178** | **19,564** |

***Kredit reytiniqinin təhlili.*** Aşağıdakı cədvəldə Təşkilatın saxladığı vaxtı keçməmiş və dəyərsizləşməmiş maliyyə aktivlərinin kredit reytinqləri təhlil edilir:

| **31 dekabr 2022-ci il** | **BB-** | **B1** | **Ba3** | **Ba2** | **Reytinqsiz** | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| Banklarda yerləşdirilmiş pul vəsaitləri | - | 1,732 | - | - | 783 | 2,525 |
| Müştərilərə verilmiş kreditlər, xalis | - | - | - | - | 44,875 | 44,875 |
| Digər maliyyə aktivləri | - | - | - | - | 136 | 136 |

| **31 dekabr 2021-ci il** | **AA-** | **B1** | **Ba3** | **Ba2** | **Reytinqsiz** | **Cəmi** |
|---|---|---|---|---|---|---|
| Banklarda yerləşdirilmiş pul vəsaitləri | - | 3,451 | 24 | 106 | 487 | 4,068 |
| Müştərilərə verilmiş kreditlər, xalis | - | - | - | - | 29,065 | 29,065 |
| Digər maliyyə aktivləri | - | - | - | - | 136 | 136 |

Təşkilat beynəlxalq agentliklər tərəfindən reytinq dərəcəsi verilməmiş tərəflərlə bir çox sazişlər bağlayır. Təşkilat qarşı tərəflərin beynəlxalq reytinq agentliklərinin təqdim etdiyi reytinq göstəriciləri ilə müqayisə oluna biləcək səviyyədə reytinq dərəcələrini müəyyən etməyə imkan yaradan daxili modelləri işləyib hazırlamışdır.

Təşkilat kredit götürən müştərilərin qiymətləndirilməsi məqsədilə borcalanlar üzrə skorinq qiymətləndirmə modelini hazırlamışdır. Skorinq modeli kredit məhsulları ilə bağlı yaradılmışdır və borcalanların əsas fəaliyyət göstəricilərini əhatə edir: maliyyə vəziyyəti, borcalanla münasibətlər, idarəetmə keyfiyyəti, təyinatı üzrə istifadə, yerləşmə, kredit tarixçəsi, girov və s.

Borcalanın parametrləri əsasında skorinq qiymətləndirmə kreditlərlə bağlı qərarvermə prosesi üçün əsas amillərdəndir.

Borcalanların qiymətləndirilməsi metodologiyası aşağıdakı meyarlara əsaslanır: təhsil, məşğuliyyəti, maliyyə vəziyyəti, kredit tarixçəsi, borcalanın sahib olduğu mülkiyyət. Əldə olunmuş məlumat əsasında kreditin ən yüksək həddi hesablanır. Kreditin ən yüksək həddi alınmış borcun borcalana yaratdığı yük əmsalı ilə hesablanır.

Müştərilərə verilmiş kreditlərdən başqa maliyyə aktivləri "Fitch", "Standard & Poor's" və "Moody's" kimi beynəlxalq reytinq agentlikləri tərəfindən verilmiş cari kredit reytinqləri əsasında dərəcələrə bölünür. AAA ən yüksək mümkün reytinq dərəcəsi hesab edilir. İnvestisiya dərəcəli maliyyə aktivlərinin reytinqi BB-dən BBB-yə kimi dəyişir. Reytinqi BBB-dən aşağı olan maliyyə aktivləri spekulyativ dərəcəli aktiv kimi təsnifləşdirilir.

**Əməliyyat riski.** Əməliyyat riski sistemdəki nasazlıq, əməliyyatçının səhvi, saxtakarlıq və digər xarici hadisələr nəticəsində zərərin yaranması riskidir. Nəzarətlər yerinə yetirilmədikdə, əməliyyat riskləri müəssisənin nüfuzuna xələl gətirə, hüquqi və ya inzibati nəticələrinə səbəb ola və ya maliyyə itkilərinə gətirib çıxara bilər. Təşkilat bütün əməliyyat risklərinin aradan qaldırılmasını gözləmir, lakin özünün nəzarət konsepsiyası ilə, habelə potensial risklərə nəzarət və onlara qarşı cavab tədbirləri görməklə bu riskləri idarə etməyə çalışır.

## 23. HESABAT DÖVRÜNDƏN SONRA BAŞ VERMİŞ HADİSƏLƏR

Təşkilat 30 yanvar 2023-cü il tarixində müştərilərə kredit vermək üçün illik 7% faiz dərəcəsi ilə "FINCA Microfinance Holding Company" MMC-dən 1,700 min AZN vəsait cəlb emişdir.

16 mart 2023-cü il tarixində Təşkilat Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsində qeydiyyata alınmış ümumi məbləği 1,765 min ABŞ dolları məbləğində, hər birinin nominal dəyəri 100 AZN, illik sabit kupon dərəcəsi 12,5%-ə və son ödəniş müddəti 2025-cü ilin mart ayında başa çatan əlavə 30 min istiqraz buraxmışdır.

29 mart 2023-cü il tarixində Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin qərarı ilə uçot dərəcəsi 8.75%-ə qaldırılmışdır.